# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# ALİ MƏHKƏMƏSİ

# B Ü L L E T E N

№ 2 (22)

Naxçıvan – 2016

*Biz hüquqi dövləti, demokratik dövləti yaradırıq. Bunun da ən prinsipial bir hissəsi məhkəmə sistemində islahatların keçirilməsi, onun beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasıdır.*

*Heydər Əliyev*



# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ

*Rəsmi sayt:* [www.alimehkeme.nakhchivan.az](http://www.alimehkeme.nakhchivan.az)
[www.supremecourt.nakhchivan.az](http://www.supremecourt.nakhchivan.az)

**Buraxılış üçün məsul şəxs:**
*R.R.Süleymanov*

**Redaksiya heyəti :**
*Ə.K.Allahverdiyev*
*Y.S.Qurbanov*
*İ.M.Mirzəyev*
*V.K.Quliyev*
*M.Ə.Əliyev*
*G.Ə.Qurbanova*

**Məsul katib:**
*Y.F.Xəlilov*

**Redaksiyanın ünvanı:**
*Naxçıvan şəhəri, Atatürk küçəsi, 19*

*Tel: 544-61-71*
*Faks: 544-70-82*

## M Ü N D Ə R İ C A T

*Azərbaycan Respublikasında hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu kontekstində müasir dövrün tələblərinə uyğun yeni baxış və mütərəqqi konstitusion islahatlar* ......................... **6**

*2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsinə (referenduma yekun vurulması və yekunların elan edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı (çıxarış)* ........................................................ **9**

*26 sentyabr 2016-cı ildə keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı* ............................ **10**

*2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının qüvvəyə minməsi ilə əlaqədar müvafiq hüquqi aktların layihələrinin hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı* ..................... **15**

## Yeni sənədlər, normativ aktlar

*"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu* .......................................... **17**

*"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 268-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı* ............................................ **18**

*“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu* ..................................................................... **19**

*“Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 267-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı* ..................................................................... **23**

*Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu”nda dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı* ............................ **28**

*“Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanunu* ...................................... **30**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinə əlavə seçkilər üzrə 06 avqust 2016-cı il tarixdə keçirilmiş seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsinə dair Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin qərarı* ................ **31**

## Məhkəmə fəaliyyəti

### Mülki kollegiyadan

*Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2016-cı ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili* ........... **34**

### İnzibati-iqtisadi kollegiyadan

*Məhkəmə fəaliyyətinə dair 2016-cı ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili* ...................................... **40**

### Cinayət kollegiyasından

*Məhkəmə fəaliyyətinə dair 2016-cı ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili* .......................................**42**

### Hərbi kollegiyadan

*Hərbi kollegiyanın 2016-cı ilin birinci yarısının yekunları üzrə fəaliyyətinin nəticələrini əks etdirən statistik məlumatlar* ................ **48**

## İnsan hüquqları və məhkəmə təcrübəsi

*İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icmalı* ............ **49**

## Nəzəriyyə və hüquqtətbiqetmə problemləri

*Daşınmaz əmlakla bağlı əqdlərin etibarsızlığına dair mülki hüquqi tənzimləmə: məhkəmə təcrübəsində qarşılaşılan çətinliklər və qanunvericilikdə nəzərdə tutulan həll yolları* .............. **58**

## Hakimlərin milli və beynəlxalq qurumlarında

*Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı Məhkəmə-Hüquq Şurasının 2016-cı ilin birinci yarısında baxdığı bir sıra işlər haqqında* ............ **65**

## Azad tribuna

*Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin bəzi müddəalarına dair mülahizələr* ............**71**

## Ali Məhkəmənin mətbuat xidmətindən

*Türkiyə Respublikası Ali Məhkəməsinin sədri və onu müşayiət edən nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir* ............**76**

*2016-cı ilin iyun-oktyabr aylarında keçirilən tədbirlərin xülasəsi* ............**78**

## Azərbaycan Respublikasında hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu kontekstində müasir dövrün tələblərinə uyğun yeni baxış və mütərəqqi konstitusion islahatlar

Xalqımızın əbədiyaşar xilaskarı, ulu öndər Heydər Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi ilə hazırlanmış Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi – referendum yolu ilə qəbulundan iyirmi ildən çox müddət keçir.

Tarixə Heydər Əliyev Konstitusiyası kimi daxil olan Əsas Qanunumuz demokratik, dünyəvi, hüquqi və unitar Azərbaycan dövlətinin əsaslarını təsbit edən mühüm və bitkin normativ sənəddir. Lakin qlobal miqyaslı sosial-siyasi və hüquqi yeniliklərin baş verdiyi, təhlükəsizlik məsələlərinin ön plana çıxdığı, dövlət idarəçiliyinin modern və daha səmərəli üsullarının tətbiq edildiyi, qanunvericilik prosesinin daima inkişaf etdiyi, dinamik olduğu və dövrün tələblərinə uyğunlaşdığı zaman Konstitusiyaya əlavələr və dəyişikliklər edilməsi daha mükəmməl əhəmiyyətə malik olur. Bu baxımdan Azərbaycan Respublikasının beynəlxalq arenaya inteqrasiyasının gücləndiyi və hüququn müasir inkişafı şəraitində konstitusiya islahatlarının aparılması zərurətə çevrilmişdir. Məhz bu zərurətdən qaynaqlanaraq 2002, 2009 və 2016-cı illərdə referendum keçirilməklə Konstitusiyamıza əlavələr və dəyişikliklər edilmişdir.

Bu əlavə və dəyişikliklər həmçinin seçki sisteminin təkmilləşdirilməsi, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi, ölkəmizin "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulmasından irəli gələn öhdəliklərə əməl olunması, insan hüquqlarının daha səmərəli müdafiə edilməsi və dövlət hakimiyyəti orqanları arasında fəaliyyətin və qarşılıqlı əlaqələrin təkmilləşdirilməsi zərurətindən irəli gəlmişdir.

Məhz həmin reallıqların nəticəsi kimi 2002-ci il avqustun 24-də ölkəmizdə ümumxalq səsverməsi – referendum keçirilmiş, ilk dəfə Konstitusiyanın ümumilikdə 24 maddəsinə 31 əlavə və dəyişikliklər edilmişdir. Xalqın siyasi iradəsinin ifadəsi olan həmin referendum nəticəsində proporsional seçki sistemi ləğv olunmuş, müstəsna hallarda Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin Milli Məclisin sədrinə deyil, Baş nazirə keçməsi proseduru müəyyən edilmiş, prezident seçkilərinin nəticələrinin sadə səs çoxluğu ilə hesablanması qaydası müəyyənləşmiş, habelə, hökumətin Milli Məclis qarşısında illik hesabatla çıxış etməsi nəzərdə tutulmuş, vətəndaşlara Konstitusiya Məhkəməsinə birbaşa müraciət etmək imkanı yaradılmış və digər prinsipial məsələlər öz hüquqi həllini tapmışdır.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə cəmiyyət həyatının bütün

sahələrində əldə edilən uğurlar, sosial-iqtisadi islahatların dərinləşməsi, vətəndaş cəmiyyəti institutlarının dövlət dəstəyi ilə əhatə olunması, məhkəmə-hüquq sistemində həyata keçirilən köklü dəyişikliklər, bütövlükdə respublikanın həyatında baş verən fundamental yeniliklər Əsas Qanunumuzda yenidən bir sıra əlavə və dəyişikliklər edilməsini obyektiv tələbata çevirmişdir. Bu məqsədlə 2009-cu il martın 18-də ölkəmizdə yenidən ümumxalq səsverməsi – referendum keçirilmiş, ikinci dəfə Konstitusiyaya 29 maddə üzrə 41 əlavə və dəyişikliklər edilmişdir. Belə ki, 12, 15 və 17-ci maddələrə edilən əlavələr Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsini də dövlətin ali məqsədi kimi təsbit etmiş, ölkədə həyata keçirilən sosial yönümlü iqtisadi siyasətə, habelə uşaq hüquqlarının daha etibarlı qorunmasına təminatı gücləndirməklə bir sıra yeni normalara konstitusion status vermişdir. 32-ci və 50-ci maddələrə edilmiş dəyişikliklər hər bir vətəndaşın şəxsi və ailə toxunulmazlığının daha etibarlı təminatına yönəlmişdir. 96-cı maddəyə qanunvericilik təşəbbüsü hüququ olan subyektlər sırasına Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşı daxil edilmişdir. 67, 125, 129 və 131-ci maddələrə edilmiş əlavələrə gəlincə, onlar məhkəmə təcrübəsi ilə bağlı bəzi hüquqi normalara konstitusion statusun verilməsi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

2009-cu ildə gerçəkləşən konstitusiya islahatından sonra ölkənin ictimai-siyasi həyatında baş vermiş əsaslı dəyişikliklər – əhalinin hüquq düşüncəsinin formalaşması, hüquq sisteminin müasirləşdirilməsi, demokratikləşmə prosesinin dərinləşməsi, qanunvericilik aktlarının təkmilləşməsi, təhlükəsizliyə dair məsələlərin yeni məzmun kəsb etməsi, dövlət təsisatlarının yenilənməsi, yerli özünüidarəetmə orqanlarının məsuliyyətinin artırılması və digər çoxsaylı mühüm proseslər Konstitusiyaya bir daha nəzər salınmasını, Əsas Qanuna müəyyən əlavə və dəyişikliklərin edilməsini obyektiv zərurətə çevirmişdir. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən rəy verilməsi üçün bu ilin 18 iyul tarixində Konstitusiya Məhkəməsinə göndərilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktına əsasən Konstitusiyanın 23 maddəsinə (9, 24, 25, 29, 32, 36, 47, 49, 53, 56, 57, 58, 59, 60, 68, 71, 85, 89, 100, 101, 105, 121, 126) əlavə və dəyişikliklərin edilməsi, eləcə də yeni 6 maddənin ($98^1$, $103^1$, $106^1$, $108^1$, $110^1$, $146^1$) əlavə edilməsi nəzərdə tutulmuş, bu ilin 25 iyul tarixində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun iclasında həmin məsələyə baxılaraq Referendum Aktının layihəsinə rəy verilmişdir.

"Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi məqsədi ilə ümumxalq səsverməsi (referendum) keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 26 iyul 2016-cı il tarixli Sərəncamı ilə ümumxalq səsverməsi (referendum) 2016-cı il sentyabrın 26-na təyin

edilmiş, həmin gün keçirilmiş ümumxalq səsverməsində (referendum) xalqımız tərəfindən Konstitusiyamıza təklif edilən dəyişiklik və əlavələr qəbul edilmişdir.

2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsinə (referenduma) yekun vurulması və yekunların elan edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 11 oktyabr 2016-cı il tarixli qərarına əsasən isə referendumun yekunları elan edilərək referendum yolu ilə qəbul edilmiş aktın mətni dərc edilmişdir.

Qeyd edək ki, sözügedən konstitusion əlavə və dəyişikliklər cəmiyyət həyatının müxtəlif sahələri – təhlükəsizlik və müdafiə, insan hüquq və azadlıqlarına dair normaların təkmilləşdirilməsi, xüsusi mülkiyyət ilə bağlı sosial öhdəliklərin nəzərdə tutulması, vətəndaşın informasiya təhlükəsizliyinin etibarlı mühafizə edilməsi, Milli Məclisin deputatlarının mandatından məhrum edilmə hallarına əlavələr edilməsi, Milli Məclisin buraxılması institutunun və vitse-prezident vəzifəsinin təsis edilməsi, yaş senzinin ləğvi nəticəsində vətəndaşların seçmək və seçilmək hüquqlarının tətbiq dairəsinin genişləndirilməsi, bələdiyyələrin məsuliyyətinin artırılması və digər mühüm məsələlər ilə bağlıdır.

Beləliklə, oxucuları "2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsinə (referenduma) yekun vurulması və yekunların elan edilməsi haqqında" Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 11 oktyabr 2016-cı il tarixli qərarı, referendum aktının mətni və 2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının qüvvəyə minməsi ilə əlaqədar müvafiq hüquqi aktların layihələrinin hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin 12 oktyabr 2016-cı il tarixli Sərəncamı ilə tanış edək.

## Qərar № 20/83
## 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsinə (referenduma) yekun vurulması və yekunların elan edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı
***(çıxarış)***

...

Seçki Məcəlləsinin 138.3-cü maddəsinə uyğun olaraq, səsvermədə iştirak etmiş seçicilərin yarısından çoxu ümumxalq səsverməsinə çıxarılan Referendum Aktı lahiyəsinin lehinə səs verdiyindən layihə qəbul edilmiş hesab edilməlidir.

Mərkəzi Seçki Komissiyası, Seçki Məcəlləsinin 138-ci və 140-cı maddələrinə uyğun olaraq, referendumdan sonra 25 gündən gec olmayaraq referenduma yekun vurur, referendumun rəsmi nəticələrini elan edir və referendum yolu ilə qəbul edilmiş aktın mətnini səsvermə günündən ən geci 30 gün keçənədək dərc edir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 138-ci, 139-cu və 140-cı maddələrinə uyğun olaraq **qərara alır:**

…

**3.** 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsinin (referendumun) nəticələri barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Protokolu təsdiq edilərək referenduma yekun vurulsun.

**4.** Daimi siyahıda olan seçicilərin 25%-dən çoxu (69.70%) səsvermədə iştirak etdiyindən ümumxalq səsverməsi (referendum) baş tutmuş hesab edilərək, Referendum Aktı layihəsində təqdim edilən 29 hissənin hər birinin lehinə səsvermədə iştirak etmiş seçicilərin yarısından çoxu səs verdiyindən "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının layihəsi qəbul edilmiş hesab edilsin.

**5.** Referendumun yekunları elan edilərək referendum yolu ilə qəbul edilmiş aktın mətni dərc edilsin.

**6.** Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir Pənahov***
***Katib Arifə Muxtarova***
***Katib Mikayıl Rəhimov***

11.10.2016

§

**26 sentyabr 2016-cı ildə keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı**

1. 9-cu maddənin I hissəsi aşağıdakı redaksiyada verilsin:

"I. Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr yaradır. Silahlı Qüvvələr Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir.".

2. 24-cü maddədə:

2.1. I və II hissələr, müvafiq olaraq, II və III hissələr hesab edilsin və həmin maddəyə aşağıdakı məzmunda I hissə əlavə edilsin:

"I. İnsan ləyaqəti qorunur və ona hörmət edilir.";

2.2. III hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Hüquqlardan sui-istifadəyə yol verilmir.".

3. 25-ci maddədə:

3.1. III hissənin birinci cümləsində "milliyyətindən" sözü "etnik mənsubiyyətindən" sözləri ilə, ikinci cümləsində "milli" sözü "etnik" sözü ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda VI hissə əlavə edilsin:

"VI. Sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar.".

4. 29-cu maddədə:

4.1. V hissə VII hissə hesab edilsin;

4.2. aşağıdakı məzmunda V və VI hissələr əlavə edilsin:

"V. Xüsusi mülkiyyət sosial öhdəliklərə səbəb olur.

VI. Sosial ədalət və torpaqlardan səmərəli istifadə məqsədi ilə torpaq üzərində mülkiyyət hüququ qanunla məhdudlaşdırıla bilər.".

5. 32-ci maddəyə aşağıdakı məzmunda VI, VII və VIII hissələr əlavə edilsin:

"VI. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, üçüncü şəxslər haqqında məlumat almaq məqsədi ilə elektron formada və ya kağız üzərində aparılan informasiya ehtiyatlarına daxil olmaq qadağandır.

VII. Məlumatın aid olduğu şəxsin buna razılığını aşkar ifadə etdiyi hallar, ayrı-seçkiliyə yol verməmək şərtilə anonim xarakterli statistik məlumatların emalı və qanunun yol verdiyi digər hallar istisna olmaqla, informasiya texnologiyalarından şəxsi həyata, o cümlədən əqidəyə, dini və etnik mənsubiyyətə dair məlumatların açıqlanması üçün istifadə edilə bilməz.

VIII. Fərdi məlumatların dairəsi, habelə onların emalı, toplanması, ötürülməsi, istifadəsi və mühafizəsi şərtləri qanunla müəyyən edilir.".

6. 36-cı maddədə:

6.1. II hissədən “və digər silahlı birləşmələrdə” sözləri çıxarılsın;

6.2. aşağıdakı məzmunda IV hissə əlavə edilsin:

“IV. Qanunla müəyyən edilmiş hallar istisna olmaqla, lokaut qadağandır.”.

7. 47-ci maddənin III hissəsində “sosial” sözündən sonra “və hər hansı digər meyara əsaslanan” sözləri əlavə edilsin.

8. 49-cu maddənin II hissəsində “etməklə” sözündən sonra “, ictimai qaydanı və ya ictimai əxlaqı pozmamaq şərtilə,” sözləri əlavə edilsin.

9. 53-cü maddənin I hissəsində “heç bir halda” sözləri çıxarılsın və “vətəndaşlığından” sözündən sonra “(onun qanunla müəyyən edilmiş itirilmə halları istisna olmaqla)” sözləri əlavə edilsin.

10. 56-cı maddənin III hissəsində “seçkilərdə iştirak etmək” sözləri “seçilmək” sözü ilə əvəz edilsin.

11. 57-ci maddənin I hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Hərbi qulluqçular bu hüquqdan yalnız fərdi qaydada istifadə edə bilərlər.”.

12. 58-ci maddənin IV hissəsinin birinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi, cinayət hesab edilən digər məqsədlər güdən və ya cinayətkar üsullardan istifadə edən birliklər qadağandır.”.

13. 59-cu maddədə:

13.1. maddənin mətni I hissə hesab edilsin və həmin hissədən “qanunla nəzərdə tutulmuş qaydada” sözləri çıxarılsın;

13.2. aşağıdakı məzmunda II hissə əlavə edilsin:

“II. Dövlət sahibkarlıq sahəsində yalnız dövlət maraqlarının, insan həyatının və sağlamlığının müdafiəsi ilə bağlı tənzimləməni həyata keçirir.”.

14. 60-cı maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 60. Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı

I. Hər kəsin hüquq və azadlıqlarının inzibati qaydada və məhkəmədə müdafiəsinə təminat verilir.

II. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın.

III. Hər kəsin inzibati icraat və məhkəmə prosesində dinlənilmək hüququ vardır.

IV. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, hüquqi şəxslərin, bələdiyyələrin və vəzifəli şəxslərin hərəkətlərindən və hərəkətsizliyindən inzibati qaydada və məhkəməyə şikayət edə bilər.”.

15. 68-ci maddədə:

15.1. maddənin adı aşağıdakı redaksiyada verilsin:

"Özbaşınalıqdan müdafiə və vicdanlı davranış hüququ";

15.2. I və II hissələr, müvafiq olaraq, II və III hissələr hesab edilsin;

15.3. aşağıdakı məzmunda I və IV hissələr əlavə edilsin:

"I. Hər kəsin dövlət orqanlarının ona münasibətdə özbaşınalığı istisna edən vicdanlı davranışına hüququ vardır.";

"IV. Dövlət, dövlət qulluqçuları ilə birlikdə, dövlət qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyır.".

16. 71-ci maddənin II hissəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Hüquq və azadlıqların məhdudlaşdırılması dövlət tərəfindən gözlənilən nəticəyə mütənasib olmalıdır.".

17. 85-ci maddənin I hissəsində "yaşı 25-dən aşağı olmayan" sözləri "seçkilərdə iştirak etmək hüququna malik olan" sözləri ilə əvəz edilsin.

18. 89-cu maddənin I hissəsinin birinci bəndinin 5-ci yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və həmin bəndə aşağıdakı məzmunda 6-cı və 7-ci yarımbəndlər əlavə edilsin:

"6) bu Konstitusiyanın 93-cü maddəsinin III hissəsinin tələbini pozduqda;

7) deputat üçün qanunla müəyyən edilmiş etik davranış qaydalarını kobud surətdə pozduqda.".

19. Aşağıdakı məzmunda $98^1$ -ci maddə əlavə edilsin:

"Maddə $98^1$. Azərbaycan Respublikası Milli Məclisinin buraxılması

I. Azərbaycan Respublikası Milli Məclisinin eyni çağırışı bir il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, qanunla müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə bu Konstitusiyanın 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır.

II. Növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddəti beş ildən az ola bilər. Bu halda Azərbaycan Respublikasının Milli Məclisinə növbəti seçkilər növbədənkənar seçkilərdə seçilən Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddətinin beşinci ilinin noyabr ayının birinci bazar günü keçirilir.".

20. 100-cü maddədən "Yaşı otuz beşdən aşağı olmayan," sözləri çıxarılsın.

21. 101-ci maddənin I hissəsində “5” rəqəmi “7” rəqəmi ilə əvəz edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Azərbaycan Respublikasının Prezidenti növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərini elan edə bilər.”.

22. Aşağıdakı məzmunda $103^1$-ci maddə əlavə edilsin:

“Maddə $103^1$. Azərbaycan Respublikasının vitse-prezidentləri

I. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.

II. Azərbaycan Respublikasının vitse-prezidenti vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir.”.

23. 105-ci maddədə:

23.1. I hissənin birinci cümləsində “üç ay ərzində” sözləri “60 gün müddətində” sözləri ilə, ikinci cümləsində “Baş naziri” sözləri “Birinci vitse-prezidenti” sözləri ilə əvəz edilsin;

23.2. II hissədə “Baş naziri” sözləri “Birinci vitse-prezidenti” sözləri ilə, “səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədri” sözləri “müəyyən etdiyi ardıcıllıqla Azərbaycan Respublikasının vitse-prezidenti Birinci vitse-prezident statusu almış olur və Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini” sözləri ilə əvəz edilsin;

23.3. III hissə aşağıdakı redaksiyada verilsin:

“III. Bu maddənin II hissəsində göstərilən səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin icra etməsi mümkün olmadıqda, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikasının Baş naziri icra edir.”;

23.4. aşağıdakı məzmunda IV hissə əlavə edilsin:

“IV. Bu maddənin II hissəsində göstərilən səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikasının Baş nazirinin icra etməsi mümkün olmadıqda, Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədri icra edir. Həmin səbəblərə görə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini Azərbaycan Respublikası Milli Məclisinin sədrinin icra etməsi mümkün olmadıqda, Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərinin başqa vəzifəli şəxs tərəfindən icrası haqqında qərar qəbul edir.”.

24. Aşağıdakı məzmunda $106^1$ -ci maddə əlavə edilsin:

“Maddə $106^1$. Azərbaycan Respublikası vitse-prezidentlərinin toxunulmazlığı

I. Səlahiyyət müddəti ərzində Azərbaycan Respublikasının vitse-prezidentinin şəxsiyyəti toxunulmazdır.

II. Azərbaycan Respublikasının vitse-prezidenti cinayət başında yaxalanma hallarından başqa tutula bilməz, cinayət məsuliyyətinə cəlb edilə bilməz, onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilə bilməz, axtarışa məruz qala bilməz, şəxsi müayinə edilə bilməz.

III. Azərbaycan Respublikasının vitse-prezidenti cinayət başında yaxalanarsa, tutula bilər. Belə olduqda onu tutan orqan bu barədə dərhal Azərbaycan Respublikasının Baş prokuroruna xəbər verməlidir.

IV. Azərbaycan Respublikasının vitse-prezidentinin toxunulmazlığına yalnız Azərbaycan Respublikası Baş prokurorunun təqdimatına əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən xitam verilə bilər.".

25. Aşağıdakı məzmunda $108^1$-ci maddə əlavə edilsin:

"Maddə $108^1$. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin təminatı

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və onun ailəsi dövlət hesabına təmin edilir. Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin və onun ailəsinin təhlükəsizliyini xüsusi mühafizə xidmətləri təmin edir.".

26. Aşağıdakı məzmunda $110^1$-ci maddə əlavə edilsin:

"Maddə $110^1$. Dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququnun verilməsi

Azərbaycan Respublikasının Prezidenti dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlamaq hüququnu vitse-prezidentə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvlərinə və Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi digər şəxslərə verə bilər.".

27. 121-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikasının Baş naziri, Baş nazirin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanı rəhbəri vəzifəsinə seçkilərdə iştirak etmək hüququna malik olan, ali təhsilli, başqa dövlətlər qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir.".

28. 126-cı maddənin I hissəsində "Yaşı 30-dan aşağı olmayan, seçkilərdə" sözləri "Seçkilərdə" sözü ilə əvəz edilsin.

29. Aşağıdakı məzmunda $146^1$-ci maddə əlavə edilsin:

"Maddə $146^1$. Bələdiyyələrin məsuliyyəti

Bələdiyyələr, bələdiyyə qulluqçuları ilə birlikdə, bələdiyyə qulluqçularının qanuna zidd hərəkətləri və hərəkətsizliyi nəticəsində insan hüquq və azadlıqlarına dəymiş ziyana görə və onların təminatının pozulmasına görə mülki məsuliyyət daşıyırlar.".

**Azərbaycan Respublikasının**
**Mərkəzi Seçki Komissiyası**

**2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının qüvvəyə minməsi ilə əlaqədar müvafiq hüquqi aktların layihələrinin hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktını və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti altı ay müddətində:

1.1. 2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktının 1 – 29-cu hissələri ilə edilmiş dəyişikliklərdən irəli gələn müvafiq hüquqi aktların layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Referendum Aktına uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Referendum Aktına uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların 2016-cı il 26 sentyabr tarixli referendum nəticəsində qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktına uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 12 oktyabr 2016-cı il.



# YENİ SƏNƏDLƏR, NORMATİV AKTLAR

Bülletenin "Yeni sənədlər, normativ aktlar" sərlövhəsini təqdim etməkdə məqsəd muxtar respublikamızla əlaqədar məsələləri nizama salan, habelə məhkəmə sistemi ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyi, Naxçıvan Muxtar Respublikasının hüquqi aktları, eləcə də Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları, qanunvericiliyə edilən dəyişikliklər, normativ-hüquqi aktlar sisteminə daxil olmayan, lakin muxtar respublikamız üçün mühüm əhəmiyyətə malik olan rəsmi sənədlərlə oxucularımızı tanış etməkdir.

Sərlövhədə bu günədək 180-ə yaxın qanunvericilik aktı və mühüm rəsmi sənəd dərc edilmişdir. Bu isə məhkəmə və hüquq-mühafizə orqanları əməkdaşlarının, həmçinin əhalinin muxtar respublikamızla bağlı zəruri hüquqi sənədlərlə yaxından tanış olmalarına geniş imkan yaratmışdır.

Bülletenin bu sayının sözügedən sərlövhəsində oxucularımızı yeni qəbul edilmiş bir sıra qanunvericilik aktları ilə tanış edirik.

**Redaksiya heyəti**

## “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq qərara alır:

“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483, № 11, maddə 1286) 86-cı maddəsinin ikinci hissəsinin ikinci cümləsi aşağıdakı redaksiyada verilsin:

“Müvafiq icra hakimiyyəti orqanı birinci və apellyasiya instansiyası məhkəmələrində bu sahələr üzrə işin təşkili vəziyyətini yoxlamaq, habelə birinci instansiya məhkəmələrində sədr və sədr müavini öz vəzifələrini yerinə yetirə bilmədikdə və ya sədr və sədr müavini vəzifələri vakant olduqda onların vəzifələrinin icrasını müvəqqəti olaraq həmin məhkəmənin hakimlərindən birinə, hakim öz vəzifələrini yerinə yetirə bilmədikdə və ya hakim vəzifəsi vakant olduqda isə hakimin vəzifələrinin icrasını müvəqqəti olaraq digər müvafiq məhkəmənin hakimlərindən birinə həvalə etmək hüququna malikdir.”.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 31 may 2016-cı il.

§

## “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 268-VQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 268-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 86-cı maddəsinin ikinci hissəsinin ikinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 23 iyun 2016-cı il.

§

## "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq qərara alır:

Maddə 1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1, № 3, maddə 131; 2002, № 12, maddə 693; 2003, № 1, maddə 16; 2004, № 1, maddə 10, № 4, maddə 199, № 5, maddə 321, № 8, maddə 597, № 11, maddə 884; 2005, № 6, maddələr 463, 475, № 10, maddə 874; 2006, № 5, maddə 386, № 6, maddə 479, № 8, maddə 657, № 11, maddə 927, № 12, maddələr 1005, 1014; 2007, № 2, maddə 83, № 5, maddələr 434, 436, № 7, maddə 711, № 10, maddə 934, № 11, maddələr 1049, 1074, 1078, № 12, maddələr 1213, 1219; 2008, № 3, maddə 153, № 5, maddələr 326, 341, № 6, maddələr 471, 481, № 7, maddə 602, № 8, maddə 699, № 10, maddə 881; 2009, № 2, maddə 54, № 5, maddə 311, № 6, maddə 403, № 10, maddə 771, № 11, maddə 878, № 12, maddə 964; 2010, № 4, maddə 276; 2011, № 2, maddə 71, № 3, maddə 165, № 6, maddə 463; 2012, № 5, maddə 413, № 10, maddə 945, № 11, maddə 1049; 2015, № 1, maddə 9, № 5, maddə 488, № 10, maddə 1100) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 22-1.3.3-cü maddədən "attestasiyası və ya onun" sözləri çıxarılsın.

1.2. 28-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 28. Dövlət qulluğuna qəbul

28.1. Dövlət qulluğuna qəbul müsabiqə əsasında aparılır. Müsabiqə test imtahanından və müsahibədən ibarətdir.

28.2. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum inzibati və yardımçı vəzifələrin təsnifat toplusuna uyğun olaraq dövlət qulluğuna qəbul üçün ayda bir dəfədən az olmayaraq test imtahanları təşkil edir.

Test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşkili, keçirilməsi, qiymətləndirmənin aparılması qaydasını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

Test imtahanında iştirak etmək üçün ödənişin məbləğini müvafiq icra hakimiyyəti orqanı müəyyən edir.

28.3. Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum test imtahanından keçən şəxsə inzibati və yardımçı vəzifələrin təsnifat toplusuna uyğun olaraq test imtahanından keçdiyini təsdiq edən sertifikat verir. Forması müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən sertifikatın qüvvə-

dəolma müddəti beş ildir. Şəxs dövlət qulluğu vəzifələri üzrə, bu Qanuna uyğun olaraq bir neçə sertifikat ala bilər.

28.4. Müsahibəni dövlət qulluğu vəzifəsinin aid olduğu dövlət orqanı təşkil edir.

Müsahibənin keçirilməsi haqqında elan, sənədlərin qəbulu üçün müəyyən edilmiş son müddət göstərilməklə, dövlət qulluğu vəzifəsinin aid olduğu dövlət orqanının internet saytında və digər kütləvi informasiya vasitələrində verilir.

28.5. Dövlət qulluğunun müvafiq vəzifəsi üzrə test imtahanından keçdiyini təsdiq edən sertifikatı qüvvədə olan şəxs müsahibədə iştirak edə bilər. Müsahibədə iştirak etmək istəyən şəxs müsahibənin keçirilməsi elan edildiyi gündən 30 gün müddətində dövlət qulluğu vəzifəsinin aid olduğu dövlət orqanına müraciət edir. Müraciətə əlavə edilməli sənədlərin siyahısı və sənədlərin qəbulu qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

28.6. Müsahibə sənədlərin qəbulu başa çatdıqdan sonra 30 gün ərzində keçirilir.

Dövlət qulluğu vəzifəsinin aid olduğu dövlət orqanı müsahibənin keçirilməsi üçün müsahibə komissiyası yaradır. Müsahibə komissiyası 5 nəfərdən ibarət tərkibdə, müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun 2 nümayəndəsi daxil edilməklə yaradılır. Müsahibə komissiyası üzvünün müsahibənin nəticələri barədə xüsusi rəyi müsahibənin nəticələrinin araşdırılması üçün əsasdır.

Müsahibə komissiyasının reqlamenti, o cümlədən müsahibə komissiyası tərkibinin formalaşdırılması, müsahibənin keçirilməsi, qiymətləndirmənin aparılması, müsahibənin nəticələrinin araşdırılması qaydası və keçid balları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

28.7. Müsabiqədən müvəffəqiyyətlə keçmiş namizədlər vakant dövlət qulluğu vəzifəsinə təyin edilmək üçün 5 iş günü müddətində dövlət orqanının rəhbərinə təqdim olunurlar. Dövlət orqanının rəhbəri təqdim olunmuş namizədlərdən birini seçərək, altı ay müddətinə stajçı kimi qulluğa qəbul etməli və vakant dövlət qulluğu vəzifəsinə təyin etməlidir. Staj dövründə dövlət orqanı rəhbərinin təyin etdiyi kurator stajçının işini istiqamətləndirir, fəaliyyətinə nəzarət edir və staj müddəti qurtardıqdan sonra stajçının sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilməsinin məqsədəuyğun olub-olmadığı barədə tövsiyə təqdim edir. Tövsiyə müsbət olarsa, stajçı əmək müqaviləsi bağlamaq yolu ilə üç ay sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilir. Əmək müqaviləsində sınaq müddəti ərzində qulluq keçmənin şərtləri müəyyənləşdirilir. Sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilən şəxslə

bağlanan əmək müqaviləsinin nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Sınaq müddəti ərzində əmək müqaviləsi pozulmayıbsa, həmin müddət qurtardıqdan sonra dövlət orqanının rəhbəri müqavilənin şərtlərinə uyğun olaraq, həmin şəxsin daimi dövlət qulluğuna qəbul edilməsi haqqında əmr verir və onunla müvafiq əmək müqaviləsi bağlayır. Daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanan əmək müqaviləsinin nümunəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

28.8. Stajçı kimi qulluğa qəbul edilmiş şəxs həmin müddətdə bu Qanunun 28-ci maddəsinə uyğun olaraq yenidən müsabiqədən keçərək yeni vəzifəyə təyin edildikdə, əvvəlki vəzifədəki staj müddəti nəzərə alınır. Sınaq müddəti ilə dövlət qulluğuna qəbul edilmiş şəxs bu Qanunun 28-ci maddəsinə uyğun olaraq yenidən müsabiqədən keçdikdə, əvvəlki sınaq müddəti nəzərə alınmamaqla, yenidən sınaq müddəti ilə vəzifəyə təyin edilir.

28.9. Daimi dövlət qulluğuna qəbul edilmiş və bu Qanunun 33.1-ci maddəsinə uyğun olaraq dövlət qulluğuna xitam verilmiş şəxslər (yardımçı vəzifə tutmuş şəxslər istisna olmaqla) yenidən dövlət qulluğuna qəbul edildikdə, onlar barəsində bu Qanunun 28.7-ci maddəsində nəzərdə tutulmuş staj və sınaq müddəti tətbiq edilmir.

28.10. Daimi dövlət qulluğuna qəbul Azərbaycan Respublikasının adından müvafiq dövlət orqanının sənədi ilə təsdiq edilir.

28.11. Vakant vəzifəyə təyin olunmaq üçün dövlət orqanının rəhbərinə təqdim olunmuş, lakin vakant vəzifəyə təyin edilməmiş namizədlər iki il müddətində həmin dövlət orqanında ehtiyat kadr kimi saxlanılır. Bu müddət ərzində həmin dövlət orqanında analoji vakant vəzifə olduqda, namizədlər onların razılığı ilə həmin vəzifələrə təyin edilir. Həmin müddət ərzində inzibati vəzifələrə təyin edilən namizəd ehtiyat kadrlar siyahısından çıxarılır. Şəxsin bir dövlət orqanında ehtiyat kadr kimi saxlanılması digər dövlət orqanında dövlət qulluğuna qəbul üzrə keçirilən müsahibədə iştirakını məhdudlaşdırmır.

28.12. Bu Qanunun 28-ci maddəsinin müddəaları ali kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin ali, birinci, ikinci və üçüncü təsnifatı vəzifələrinə və bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulmuş dövlət qulluğunun xüsusi növünə qəbula şamil edilmir. Bu Qanunun 2.3-cü maddəsində nəzərdə tutulmuş dövlət orqanlarında qulluğa (xidmətə) qəbul qaydaları Azərbaycan Respublikasının dövlət qulluğunun xüsusi növünü tənzimləyən qanunları ilə müəyyən edilir.”.

1.3. Aşağıdakı məzmunda 28-1-ci maddə əlavə edilsin:

“Maddə 28-1. Dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi

28-1.1. Dövlət qulluqçusu kimi fəaliyyətini davam etdirmək istəyən şəxs sertifikatın qüvvədə olma müddətinin son ilində növbəti sertifikat almaq üçün müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum tərəfindən keçirilən imtahanlarda iştirak etməli və yenidən sertifikat almalıdır.

28-1.2. Sertifikat alaraq dövlət qulluğuna qəbul edilən şəxs sonradan iki dəfə sertifikat aldıqda, sonuncu sertifikat şəxsə ömürlük verilir və həmin şəxs dövlət qulluqçusu kimi fəaliyyətini davam etdirməsi üçün hər hansı bir imtahana cəlb oluna bilməz.

28-1.3. Sertifikat alaraq dövlət qulluğuna qəbul edilən şəxsi işlədiyi dövlət orqanının rəhbəri bu Qanuna əsasən digər oxşar vəzifəyə təyin edə, habelə sertifikatına uyğun olaraq, vəzifədə irəli çəkə bilər.”.

1.4. 29.2-ci maddənin birinci hissəsinin üçüncü cümləsində və 29.4-cü maddənin birinci hissəsində “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum” sözləri ilə əvəz edilsin.

1.5. 29.7-ci maddədə “nümayəndəsi də daxil olmaqla, üzvlərinin sayı üç nəfərdən az olmayan” sözləri “yaratdığı qurumun 2 nümayəndəsi daxil edilməklə, 5 nəfərdən ibarət” sözləri ilə əvəz edilsin.

1.6. 29.9.2-ci və 31-ci maddələr ləğv edilsin.

1.7. 30-1.1-ci maddənin üçüncü cümləsi çıxarılsın.

1.8. 33.1.5-ci maddə aşağıdakı redaksiyada verilsin:

“33.1.5. dövlət qulluqçusunun aldığı sertifikatın qüvvədəolma müddəti bitdikdə və dövlət qulluqçusu növbəti sertifikat ala bilmədikdə;”.

Maddə 2. Keçid müddəaları

2.1. Bu Qanunun müddəaları bu Qanun qüvvəyə minənədək dövlət qulluğunda çalışan şəxslərə şamil edilmir.

2.2. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 32-1.8.4-cü maddəsi bu Qanun qüvvəyə mindikdən sonra dövlət qulluğuna qəbul edilən şəxslərə şamil edilmir.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 31 may 2016-cı il.

§

## “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 267-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 267-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi ilə razılaşdırılmış təkliflər əsasında:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 28.6-cı maddəsinin üçüncü hissəsinə uyğun olaraq, müsahibə komissiyasının reqlamenti, o cümlədən müsahibə komissiyası tərkibinin formalaşdırılması, müsahibənin keçirilməsi, qiymətləndirmənin aparılması, müsahibənin nəticələrinin araşdırılması qaydası və keçid balları barədə təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.3. həmin Qanunun 28.7-ci maddəsinin səkkizinci cümləsinə uyğun olaraq, daimi dövlət qulluğuna qəbul edilən şəxslə bağlanan əmək müqaviləsinin nümunəsinə dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.5. həmin Qanunun 28.2-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, test nümunələrinin hazırlanması, ekspertizası, təsdiqi, test imtahanının təşki-

li, keçirilməsi, qiymətləndirmənin aparılması qaydasını iki ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.6. həmin Qanunun 28.3-cü maddəsinin ikinci cümləsinə və 28-1-ci maddəsinə uyğun olaraq, test imtahanından keçmək barədə sertifikatın formasını iki ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.7. həmin Qanunun 28.5-ci maddəsinin üçüncü cümləsinə uyğun olaraq, dövlət qulluğu üzrə müsahibədə iştirak etmək üçün müraciətə əlavə edilməli sənədlərin siyahısını və sənədlərin qəbulu qaydasını iki ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 28.2-ci maddəsinin birinci hissəsində, 28.3-cü maddəsinin birinci cümləsində, 28.6-cı maddəsinin ikinci hissəsinin ikinci cümləsində, 28-1.1-ci maddəsində, 29.2-ci maddəsinin birinci hissəsinin üçüncü cümləsində, 29.4-cü maddəsinin birinci hissəsində və 29.7-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə, Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

2.2. həmin Qanunun 28.6-cı maddəsinin üçüncü hissəsində və 28.7-ci maddəsinin altıncı və səkkizinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.3. həmin Qanunun 28.2-ci maddəsinin ikinci hissəsində, 28.3-cü maddəsinin ikinci cümləsində və 28.5-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.4. həmin Qanunun 28.2-ci maddəsinin üçüncü hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası həyata keçirir;

2.5. həmin Qanunun 28.2-ci maddəsinin birinci hissəsində, 28.3-cü maddəsinin birinci cümləsində, 28.6-cı maddəsinin ikinci hissəsinin ikinci cümləsində, 28-1.1-ci maddəsində, 29.2-ci maddəsinin birinci hissəsinin üçüncü cümləsində, 29.4-cü maddəsinin birinci hissəsində və 29.7-ci

maddəsində nəzərdə tutulmuş qurum Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzidir.

3. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 aprel tarixli 860 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 665) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bənddə "(bundan sonra – Mərkəz)" sözlərindən sonra "dövlət qulluğu sahəsində fəaliyyəti, ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsini (attestasiyasını) həyata keçirən," sözləri əlavə edilsin;

3.2. 2.1.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.1. dövlət qulluğu sahəsində dövlət siyasətinin formalaşdırılmasında iştirak edir və bu siyasətin həyata keçirilməsini təmin edir;";

3.3. aşağıdakı məzmunda 2.1.1-1-ci yarımbənd əlavə edilsin:

"2.1.1-1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün test imtahanları keçirir və dövlət qulluğu vəzifələrinin tutulması üçün keçirilən müsabiqənin, o cümlədən dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün keçirilən test imtahanlarının şəffaflığını təmin edir;";

3.4. 2.1.5-ci yarımbənddə "saytının" sözü "portalının" sözü ilə, "saytda" sözü "portalda" sözü ilə əvəz edilsin;

3.5. 2.1.12-ci yarımbənddə "tələbə qəbulu ilə" sözlərindən sonra ", dövlət qulluğuna qəbulla və inzibati vəzifələrin tutulması ilə" sözləri əlavə edilsin;

3.6. 2.1.14-cü yarımbənddə "qəbul kampaniyası" sözləri "qəbul prosesi və ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsi" sözləri ilə əvəz edilsin, "yol verilmiş" sözlərindən sonra "pozuntu hallarının aradan qaldırılması ilə bağlı təqdimat verir və" sözləri əlavə edilsin;

3.7. 2.1.17-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.1.18–2.1.37-ci yarımbəndlər əlavə edilsin:

"2.1.18. dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə test imtahanının məzmununu və proqramlarını təsdiq edir, inzibati vəzifələrin tutulması üzrə müsahibə proqramlarının hazırlanmasında iştirak edir və təsdiqinə razılıq verir, təsdiq edilmiş test imtahanı və müsahibə proqramlarını internet portalında yerləşdirir;

2.1.19. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üçün test imtahanından keçən şəxsə sertifikat verir;

2.1.20. dövlət qulluğu üzrə verdiyi sertifikatların uçotunu aparır;

2.1.21. müsabiqəyə çıxarılan dövlət qulluğu vəzifələri üzrə vəzifə təlimatlarının Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi ümumi şərtlərə uyğun hazırlanmasını təmin edir;

2.1.22. dövlət orqanları tərəfindən müsahibə elan edilməsi nəzərdə tutulan vakant dövlət qulluğu vəzifələrinə dair müsahibə məlumatlarının (müvafiq vəzifə üzrə vəzifə təlimatının, müsahibə proqramlarının, müsahibə elanının, müsahibənin keçirilmə qrafikinin, keçirilmiş müsahibənin nəticələrinin) internet portalında yerləşdirilməsini təmin edir;

2.1.23. müsahibədə iştirak etmək istəyən şəxsin müraciətinin və müsahibədə iştirak üçün tələb olunan sənədlərin internet portalı vasitəsilə dövlət orqanlarına təqdim olunmasını təmin edir;

2.1.24. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, dövlət orqanının yaratdığı müsahibə komissiyasının tərkibinə nümayəndələr təqdim edir;

2.1.25. dövlət orqanlarının nümayəndələri və müstəqil ekspertlər üçün müsahibənin aparılması üzrə təlimlər təşkil edir;

2.1.26. imtahanlarla, o cümlədən dövlət qulluğuna qəbul və dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi üzrə test imtahanları ilə, inzibati vəzifələrin tutulması üzrə müsahibələrlə bağlı xüsusi halların araşdırılması üçün komissiyalar yaradır;

2.1.27. buraxılış və qəbul imtahanlarının yekunlarına dair elmi-statistik təhlil aparır və nəticələrini Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Təhsil Nazirliyinə təqdim edir;

2.1.28. dövlət qulluğuna dair qanunvericiliyin icra vəziyyətini öyrənir və bu barədə hesabat hazırlayır;

2.1.29. dövlət orqanlarının dövlət qulluğu ilə bağlı qanunsuz aktlarının ləğv edilməsinə dair təkliflər verir;

2.1.30. dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl edilməsi vəziyyətini öyrənir və bu barədə məlumatları ümumiləşdirir;

2.1.31. "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarının pozulması ilə bağlı şikayətlər və məlumatlar qəbul edir;

2.1.32. dövlət qulluqçularının etik davranış məsələləri üzrə araşdırmalar aparır, tövsiyələr və məruzələr tərtib edir;

2.1.33. daxil olmuş materiallarda hüquqpozmaların əlamətləri olduqda, həmin materialları yoxlanılmaq üçün müvafiq orqanlara göndərir;

2.1.34. dövlət qulluğu və dövlət qulluqçularının etik davranış qaydaları haqqında qanunvericiliyin tələblərinin pozulması hallarını aradan qaldırmaq

üçün dövlət orqanlarına və vəzifəli şəxslərə təqdimat verir və yol verilmiş pozuntu halları barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verir;

2.1.35. dövlət qulluğu və dövlət qulluqçularının etik davranış məsələləri barədə maarifləndirmə işi aparır;

2.1.36. dövlət qulluqçularının reyestrini aparır və dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi barədə məlumatların həmin reyestrə daxil edilməsini təmin edir;

2.1.37. müvafiq sahədə kadr hazırlığını təmin edir, həmçinin mütəxəssislərin əlavə təhsili üçün tədbirlər görür.";

3.8. 3.1.5-ci yarımbənd ləğv edilsin;

3.9. aşağıdakı məzmunda 3.1.2-1–3.1.2-8-ci yarımbəndlər əlavə edilsin:

"3.1.2-1. fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, elmi tədqiqatlar aparmaq;

3.1.2-2. fəaliyyət istiqamətlərinə uyğun olaraq dövlət informasiya sistemlərindən və ehtiyatlarından, o cümlədən "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemindən informasiya almaq;

3.1.2-3. dövlət qulluğu sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər vermək;

3.1.2-4. dövlət qulluğunda təlim tələbatını müəyyən etmək, dövlət qulluqçuları üçün təlim strategiyasını hazırlamaq və dövlət orqanlarına dövlət qulluqçularının əlavə təhsili barədə təkliflər vermək;

3.1.2-5. ilk dəfə dövlət qulluğuna qəbul olan şəxslər üçün dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi, etik davranış, maraqlar toqquşması, korrupsiyaya qarşı mübarizə və s. məsələlər üzrə, rəhbər vəzifə tutan dövlət qulluqçuları üçün isə idarəetmə və komanda qurmaq və s. məsələlər üzrə təlim kursları təşkil etmək;

3.1.2-6. dövlət qulluğunun inkişafına yönəlmiş dövlət və beynəlxalq proqramların həyata keçirilməsində iştirak etmək, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq, dövlət qulluğu məsələləri üzrə beynəlxalq əməkdaşlığı həyata keçirmək;

3.1.2-7. dövlət qulluğu və tələbə qəbulu məsələləri üzrə beynəlxalq və qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri və müstəqil ekspertlərlə əməkdaşlıq etmək;

3.1.2-8. daxil olmuş şikayətlər və məlumatlardan irəli gələn məsələlərin həlli üzrə təkliflər, tövsiyələr və təqdimatlar vermək;";

3.10. 3.1.3-cü yarımbənddə "siyahılarını" sözündən sonra ", dövlət orqanları tərəfindən barəsində müsahibə elan edilməsi nəzərdə tutulan

vakant dövlət qulluğu vəzifələrinə dair müsahibə məlumatlarını və vakant vəzifəyə təyinata dair məlumatı” sözləri əlavə edilsin;

3.11. 3.1.7-ci yarımbənd ləğv edilsin;

3.12. 3.1.10-cu yarımbənddə “hazırlıq kursları” sözlərindən sonra “, təlimlər” sözü əlavə edilsin, “abituriyentlərin test üsulu ilə imtahanlara hazırlaşmasına kömək məqsədi ilə” sözləri çıxarılsın;

3.13. 3.1.11-ci yarımbənddə “təqdim etmək” sözlərindən sonra “, internet portalında yerləşdirmək” sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 28.2-ci maddəsinin üçüncü hissəsinə uyğun olaraq, test imtahanında iştirak etmək üçün ödənişin məbləğini iki ay müddətində müəyyən etsin.

5. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 31 may tarixli 267-VQD nömrəli Qanunu qüvvəyə minənədək elan edilmiş müsabiqələrdə iştirak edərək dövlət qulluğunun ehtiyat kadrlarının siyahısına daxil edilmiş şəxslər həmin siyahıda olduqları müddətdə dövlət orqanlarında analoji vakant vəzifəyə təyin oluna bilərlər. Həmin şəxslərə dövlət qulluğu vəzifəsinə təyin olunduğu gündən sertifikat verilir.

6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 9 avqust 2016-cı il.

§

## Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu”nda dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İnzibati və yardımçı

vəzifələrin Təsnifat Toplusu"nu "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 30 sentyabr tarixli 1339-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli 911 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 440; 2006, № 3, maddə 229, № 6, maddə 498; 2007, № 2, maddələr 86, 101, № 3, maddələr 217, 227, № 7, maddə 714, № 9, maddə 867, № 10, maddə 948, № 12, maddə 1242; 2008, № 1, maddə 9, № 3, maddələr 173, 179, № 6, maddə 499, № 8, maddələr 717, 723; 2009, № 2, maddə 66, № 6, maddələr 419, 421, 422; 2010, № 2, maddə 80, № 3, maddə 183, № 10, maddə 850; 2011, № 2, maddə 85; 2012, № 11, maddə 1078; 2013, № 3, maddə 236, № 8, maddə 901; 2014, № 9, maddə 1027) ilə təsdiq edilmiş "İnzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1.1-ci yarımbəndin dördüncü abzasına "Dövlət müşaviri" sözlərindən sonra ", Azərbaycan Respublikası Ali Məhkəməsi Aparatının rəhbəri" sözləri əlavə edilsin.

2. 2.1.2-ci yarımbənd üzrə:

2.1. onuncu abzasda "və Azərbaycan Respublikası Nazirlər Kabinetinin" sözləri ", Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin" sözləri ilə əvəz edilsin;

2.2. on ikinci abzasdan "Azərbaycan Respublikası Ali Məhkəməsi," sözləri çıxarılsın;

2.3. on üçüncü abzasda "və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi" sözləri ", Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi və Azərbaycan Respublikası Ali Məhkəməsi" sözləri ilə əvəz edilsin.

3. 2.1.3-cü yarımbənd üzrə:

3.1. altıncı abzasda "və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin" sözləri ", Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin" sözləri ilə əvəz edilsin;

3.2. doqquzuncu abzasa "Azərbaycan Respublikası Nazirlər Kabinetinin" sözlərindən sonra ", Azərbaycan Respublikası Ali Məhkəməsinin," sözləri əlavə edilsin;

3.3. onuncu abzasdan "Azərbaycan Respublikası Ali Məhkəməsi," sözləri çıxarılsın.

4. 2.1.4-cü yarımbənd üzrə:

4.1. yeddinci abzasın sonuna "məsləhətçi" sözündən sonra ", Azərbaycan Respublikası Ali Məhkəməsinin Aparatında sektor müdiri, baş məsləhətçi,

böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi, məhkəmə iclasının katibi, hakimin köməkçisi" sözləri əlavə edilsin;

4.2. onuncu abzasda "və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin" sözləri ", Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin" sözləri ilə əvəz edilsin;

4.3. on dördüncü abzasdan "Azərbaycan Respublikası Ali Məhkəməsinin," sözləri çıxarılsın;

4.4. on beşinci abzasdan "Azərbaycan Respublikası Ali Məhkəməsi sədrinin," sözləri çıxarılsın;

4.5. on altıncı abzas ləğv edilsin.

5. 2.1.5-ci yarımbəndin ikinci abzası ləğv edilsin.

6. 2.1.6-cı yarımbəndin on ikinci abzasından "Azərbaycan Respublikası Ali Məhkəməsinin İşlər İdarəsində şöbə müdiri, onun müavini, sektor müdiri, baş mühasib, baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi, məsləhətçi," sözləri çıxarılsın.

7. 2.3.1-ci yarımbəndin beşinci və altıncı abzaslarında "və Azərbaycan Respublikası Nazirlər Kabinetinin" sözləri ", Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Azərbaycan Respublikası Ali Məhkəməsinin" sözləri ilə əvəz edilsin.

8. 2.3.2-ci yarımbəndin ikinci abzasından "Azərbaycan Respublikası Ali Məhkəməsinin," sözləri, üçüncü abzasından isə "Azərbaycan Respublikası Ali Məhkəməsinin İşlər İdarəsində və" sözləri çıxarılsın.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 9 iyun 2016-cı il.

§

## "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Naxçıvan Muxtar Respublikasının Qanunu

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 24-cü maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun

12.2.1-ci, 12.2.7-ci, 18-1.2.1-ci və 18-1.2.2-ci maddələrinə müvafiq olaraq “psixiatriya müəssisələri” sözlərindən sonra “, qanunsuz miqrantların saxlanılması mərkəzi” sözləri əlavə edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 22 iyul 2016-cı il*

§

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə əlavə seçkilər üzrə 06 avqust 2016-cı il tarixdə keçirilmiş seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsinə dair Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin**

**Q Ə R A R I**

10 avqust 2016-cı il Naxçıvan şəhəri

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyəti Allahverdiyev Əli Kərim oğlunun sədrliyi ilə, Rəyasət Heyətinin üzvləri Qurbanov Yusifəli Süleyman oğlu və Məmmədov Qabil Neymət oğlundan ibarət tərkibdə, Allahverdiyeva Aybəniz Məhəmməd qızının katibliyi,

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Qasımov Məhərrəm Əli oğlunun, sədr müavini Qədimov Əli Tofiq oğlunun, katibi Eyvazov Elnur Həsənəli oğlunun, üzvlər Məmmədov Şamxal Şükür oğlunun, Ağayev Arif Qurban oğlunun, Hüseynzadə Əkrəm Rüfət oğlunun və Quliyeva Ceyran Manaf qızının,

Mütəxəssislər Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin əməkdaşları Məmmədov Məhərrəm Allahverdi oğlunun, Əsgərov Rəhim Əsgər oğlunun və Qurbanov Cavanşir Məmməd oğlunun iştirakları ilə

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsinə uyğun olaraq konstitusiya icraatı qaydasında Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasından daxil olmuş materiallar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 2016-cı il avqust ayının 06-da keçirilmiş əlavə seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsi haqqında işə baxaraq hakim Allahverdiyev Əli Kərim oğlunun məruzəsini, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Qasımov Məhər-

rəm Əli oğlunun çıxışını və mütəxəssislərin arayışını dinləyib müzakirə edərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyəti

**M Ü Ə Y Y Ə N   E T D İ :**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin 2-ci hissəsinin 1-ci bəndinə, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 8.1-ci maddəsinə və "45 saylı Aza seçki dairəsi üzrə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə əlavə seçkilərin təyin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 07 iyun 2016-cı il tarixli Sərəncamına əsasən 06 avqust 2016-cı il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə əlavə seçkilər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsinə və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 93.1-ci maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilmiş əlavə seçkilərin yekunlarının yoxlanılması və təsdiq edilməsi məsələsinə baxılması üçün səsvermənin ümumi yekunları haqqında Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 08 avqust 2016-cı il tarixli SQ-3/2016 nömrəli qərarı və protokolunu (onlara əlavə edilən sənədlərlə birlikdə) 2016-cı il 08 avqust tarixində Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə təqdim etmişdir.

Təqdim edilmiş seçkilərin ümumi yekunları haqqında sənədlərdə 06 avqust 2016-cı il tarixdə 45 saylı Aza seçki dairəsi üzrə 16 seçki məntəqəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilmiş əlavə seçkilərin nəticələri öz əksini tapmışdır.

Seçkilərin ümumi yekunları haqqında təqdim edilmiş sənədlərdən məlum olur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə əlavə seçkilər üzrə 45 saylı Aza seçki dairəsi üzrə passiv seçki hüququ olan 3 nəfər Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən deputatlığa namizəd kimi qeydə alınmışdır.

Səsvermə günü Naxçıvan Muxtar Respublikası üzrə 45 saylı Aza seçki dairəsinin 16 seçki məntəqəsində səsvermə keçirilmişdir.

Seçki sənədləri yoxlanılarkən müəyyən edilmişdir ki, Naxçıvan Muxtar Respublikası üzrə Ali Məclisə əlavə seçkilərin keçirilməsi üçün yaradılmış 45 saylı Aza seçki dairəsini əhatə edən 16 seçki məntəqəsi üzrə aktiv seçki hüququ olan 6049 seçici ümumi seçici siyahılarına daxil edilmiş, onlardan 4828 nəfəri, yəni 79,8 faizi səsvermədə iştirak etmişdir. Səsvermədə iştirak etmiş seçicilərin 4828 nəfəri bilavasitə seçki məntəqələrində səs vermişlər.

Seçki qutularında aşkar edilən 4828 bülletendən 4764 seçki bülleteni, yəni 98,67 faizi etibarlı hesab edilmiş, 64 bülleten, yəni 1,33 faizi isə etibarsız hesab edilmişdir.

Məntəqələr üzrə seçki günü 1221 ədəd istifadə edilməmiş seçki bülletenləri məntəqə seçki komissiyaları tərəfindən ləğv edilmişdir. Göstərilənlər "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 88-ci və 89-cu maddələrinin tələblərinə uyğundur.

Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim olunmuş, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi tərəfindən tələb edilmiş sənədlərin, habelə cəlb olunmuş mütəxəssislərin arayışının təhlili göstərir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 45 saylı Aza seçki dairəsi üzrə keçirilmiş əlavə seçkilərin nəticələri barədə protokolları, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 08 avqust 2016-cı il tarixli protokolu və onlara əlavə edilmiş sənədlər "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun tələblərinə cavab verir. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 45 saylı Aza seçki dairəsi üzrə keçirilmiş əlavə seçkilərin yekunları təsdiq edilməlidir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyəti göstərilənlərə əsaslanıb Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsini və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 93.1-ci və 93.4-cü maddələrini rəhbər tutaraq

**Q Ə R A R A   A L I R :**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə 06 avqust 2016-cı il tarixdə keçirilmiş 45 saylı Aza seçki dairəsi üzrə əlavə seçkilərin nəticələri təsdiq edilsin.
2. Qərar elan olunduğu gündən qüvvəyə minir.
3. Qərar "Şərq qapısı" qəzetində dərc edilsin.
4. Qərar qətidir, heç bir orqan tərəfindən ləğv edilə, dəyişdirilə və yaxud rəsmi təfsir edilə bilməz.

Sədrlik edən: Əli Allahverdiyev



# MƏHKƏMƏ FƏALİYYƏTİ

***MÜLKİ KOLLEGİYADAN***

## Mülki mühakimə sahəsində məhkəmə fəaliyyətinə dair 2016-cı ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2016-cı ilin birinci yarısında 695 mülki işə baxılmaqla nəticə verilmişdir. 2015-ci ilin birinci yarısında isə həmin məhkəmələr tərəfindən 685 mülki işə baxılmışdır. Bu onu göstərir ki, baxılan mülki işlərin sayı 2015-ci ilin birinci yarısı ilə müqayisədə 2016-cı ilin birinci yarısında 1,46% artmışdır.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrinin mülki işlər üzrə çıxardıqları qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2016-cı ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 44 apellyasiya şikayətinə baxılıb nəticə verilmişdir.

Apellyasiya şikayətləri ilə bağlı ötən il 44 mülki işdən 43 işə apellyasiya qaydasında baxılaraq 25 qətnamə və 4 qərardad dəyişdirilmədən saxlanılmış, 1 qətnamə dəyişdirilmiş, 13 qətnamə isə ləğv edilmişdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 369-cu maddəsində göstərilən əsasla 1 apellyasiya şikayətinin icraatına isə xitam verilmişdir.

Apellyasiya şikayəti ilə əlaqədar kollegiyada baxılıb nəticə verilmiş işləri mülki hüquq münasibətlərinin mahiyyətinə görə təsnif etdikdə bu işlər üzrə göstəricilər aşağıdakı qaydada müəyyən olunur:

- ailə münasibətləri üzrə mübahisələr – 20 iş
- mənzil mübahisələri – 2 iş
- müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr – 7 iş
- torpaq mübahisələri – 4 iş
- xüsusi icraat işləri üzrə – 1 iş
- mülkiyyət hüququ ilə əlaqədar mübahisələr - 3 iş
- digər mülki işlər – 6 iş

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2016-cı ilin birinci yarısında baxılmış mülki işlər üzrə çıxarılan qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə məhkəmə təcrübəsinin təhlili göstərir ki, 2015-ci ilin birinci yarısı ilə müqayisədə 2016-cı ilin birinci yarısında apellyasiya şikayətlərinin sayı 2,32% artmışdır. Belə ki, 2015-ci ilin birinci yarısında birinci instansiya məhkəmələri tərəfindən mülki işlər üzrə qəbul edilmiş qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 43 apellyasiya şikayətinə baxılmışdır. Bu artım isə onu deməyə əsas verir ki, əhalinin məhkəmə orqanlarına və ədalət mühakiməsinin obyektiv şəkildə həyata keçirilməsinə inamı gün keçdikcə artmaqdadır.

Qəbul edilmiş qərarların sabitliyi üzrə göstərici 2015-ci ilin birinci yarısı ilə müqayisədə 2016-cı ilin birinci yarısında yuxarı olmuşdur. Belə ki, 2015-ci ilin birinci yarısında rayon (şəhər) məhkəmələri tərəfindən qəbul edilən 685 qətnamə və qərardadlardan 2,34%-i apellyasiya qaydasında dəyişdirilmiş və yaxud ləğv edilmişdirsə, 2016-cı ilin birinci yarısında məhkəmələrin baxdığı işlər üzrə çıxarılan 695 qətnamə və qərardadlardan 2,01%-i dəyişdirilmiş və yaxud ləğv edilmişdir. Bu isə o deməkdir ki, məhkəmə qərarlarının sabitlik göstəricisi 2015-ci ilin birinci yarısında 97,66%, 2016-cı ilin birinci yarısında isə 97,99% təşkil etmişdir.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, muxtar respublikanın şəhər və rayon məhkəmələrinə 2016-cı ilin birinci yarısında daxil olan mülki işlərin 34,39%-ni nikahın ləğvi tələbi ilə əlaqədar olan işlər təşkil etmişdir. Müqavilələrdən əmələ gələn öhdəliklər, vərəsəlik hüququ və mülkiyyət hüququ ilə əlaqədar mübahisələr üzrə işlərin sayı da digər mübahisələrə nisbətən daha çox olmuşdur.

Statistik məlumatlara görə kollegiya tərəfindən 2016-cı ilin birinci yarısında apellyasiya qaydasında baxılan qərarların 31,82%-nin ləğv və yaxud dəyişdirilməsinə həmin işlərə baxılarkən birinci instansiya məhkəmələri tərəfindən maddi və prosessual hüquq normalarının tələblərinin pozulması və məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün halların aydınlaşdırılmaması səbəb olmuşdur.

Apellyasiya baxışının nəticələrinə görə muxtar respublikanın ayrı-ayrı məhkəmələri üzrə 2015 və 2016-cı illərin birinci yarımilinə dair göstəricilər aşağıdakı cədvəllərdə göstərildiyi kimi olmuşdur.

2015-ci ilin birinci yarısında apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Q ə t n a m ə l ə r | | | | | Qərardadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | İddia baxılmamış saxl. | İş.ic.xit ver. | | |
| **Naxçıvan** | **15** | **1** | **9** | **2** | **1** | | **2** | | |
| **Babək** | **2** | | **2** | | | | | | |
| **Şərur** | **11** | **1** | **3** | **3** | **3** | | | | **1** |
| **Şahbuz** | **3** | **2** | | | **1** | | | | |
| **Kəngərli** | **2** | | **1** | **1** | | | | | |
| **Culfa** | **7** | **1** | **4** | | **1** | | | | **1** |
| **Ordubad** | **3** | | **1** | **2** | | | | | |
| **YEKUN** | **43** | **5** | **20** | **8** | **6** | | **2** | | **2** |

2016-cı ilin birinci yarısında apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Q ə t n a m ə l ə r | | | | | Qərardadlar | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | Ləğv edilmişdir | Qüvvədə saxlanılmışdır |
| | | | | | Yeni qətnamə çıxarılıb | İddia baxılmamış saxl. | İş.ic.xit ver. | | |
| **Naxçıvan** | **9** | | **8** | | | | | | **1** |
| **Babək** | **1** | | | | **1** | | | | |
| **Şərur** | **13** | | **9** | | **4** | | | | |
| **Şahbuz** | **4** | | **2** | | **2** | | | | |
| **Kəngərli** | **1** | | | | **1** | | | | |
| **Culfa** | **7** | **1** | **3** | | | | **2** | | **1** |
| **Ordubad** | **9** | | **3** | **1** | **1** | | **2** | | **2** |
| **YEKUN** | **44** | **1** | **25** | **1** | **9** | | **4** | | **4** |

Apellyasiya qaydasında 2016-cı ilin birinci yarısında ləğv edilmiş və yaxud dəyişdirilmiş məhkəmə qərarları üzrə ayrı-ayrı məhkəmələrin göstəricilərini bir-biri ilə, eləcə də həmin məhkəmələr tərəfindən çıxarılmış qətnamə və qərardadların ümumi sayı ilə müqayisə etdikdə müəyyən olur ki, qətnamə və qərardadların sabitliyi üzrə ən aşağı göstəriciyə Ordubad Rayon

Məhkəməsi, ən yüksək göstəriciyə isə Naxçıvan Şəhər və Sədərək Rayon Məhkəmələri malikdirlər. Belə ki, 2016-cı ilin birinci yarısında Ordubad Rayon Məhkəməsində çıxarılan 39 qərardan 4 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 10,26%-i ləğv edildiyinə və dəyişdirildiyinə görə məhkəmə qərarlarının sabitliyi üzrə göstərici 89,74% olduğu halda, Naxçıvan Şəhər və Sədərək Rayon Məhkəmələrinin qətnamə və qərardadlarının sabitliyi üzrə göstərici 100% təşkil etmişdir. Çünki, həmin dövrdə Sədərək Rayon Məhkəməsi tərəfindən çıxarılmış 3 qətnamə və qərardaddan apellyasiya şikayəti verilməmiş, Naxçıvan Şəhər Məhkəməsi tərəfindən çıxarılmış 224 qətnamə və qərardaddan isə heç biri ləğv edilməmiş və ya dəyişdirilməmişdir.

Babək Rayon Məhkəməsi tərəfindən 2016-cı ilin birinci yarısında çıxarılan 82 qətnamə və qərardaddan 1 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,22%-i ləğv edilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,78% təşkil etmişdir.

Kəngərli Rayon Məhkəməsi tərəfindən 2016-cı ilin birinci yarısında çıxarılan 64 qətnamə və qərardaddan 1 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,56%-i ləğv edilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,44% təşkil etmişdir.

Şahbuz Rayon Məhkəməsi tərəfindən 2016-cı ilin birinci yarısında çıxarılan 81 qətnamə və qərardaddan 2 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 2,47%-i ləğv edilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 97,53% təşkil etmişdir.

Culfa Rayon Məhkəməsi tərəfindən 2016-cı ilin birinci yarısında çıxarılan 68 qətnamə və qərardaddan 2 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 2,94%-i ləğv edilmişdir, beləliklə məhkəmə qərarlarının sabitlik göstəricisi 97,06% təşkil etmişdir.

Şərur Rayon Məhkəməsi tərəfindən 2016-cı ilin birinci yarısında çıxarılan 134 qətnamə və qərardaddan 4 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 2,98%-i ləğv edilmişdir, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 97,02% təşkil etmişdir.

2015-ci ilin birinci yarısında isə baxılmış işlər üzrə qəbul edilmiş qətnamə və qərardadların sabitlik göstəriciləri aşağıdakı kimi olmuşdur:

- Babək Rayon Məhkəməsi – 100% (88 qətnamə və qərardaddan heç biri ləğv edilməmiş və yaxud dəyişdirilməmişdir);
- Sədərək Rayon Məhkəməsi – 100% (11 qətnamə və qərardaddan apellyasiya şikayəti verilməmişdir);
- Şahbuz Rayon Məhkəməsi – 98,63% (73 qətnamə və qərardaddan 1 qətnamə, yəni 1,37%-i ləğv edilmişdir);

- Kəngərli Rayon Məhkəməsi – 98,08% (52 qətnamə və qərardaddan 1 qətnamə, yəni 1,92%-i dəyişdirilmişdir);
- Culfa Rayon Məhkəməsi – 97,78% (45 qətnamə və qərardaddan 1 qətnamə, yəni 2,22%-i ləğv edilmişdir);
- Naxçıvan Şəhər Məhkəməsi – 97,72% (219 qətnamə və qərardaddan 5 qətnamə, yəni 2,28%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- Şərur Rayon Məhkəməsi – 95,95% (148 qətnamə və qərardaddan 6 qətnamə, yəni 4,05%-i ləğv edilmiş və yaxud dəyişdirilmişdir).
- Ordubad Rayon Məhkəməsi – 95,92% (49 qərardan 2 qətnamə, yəni 4,08%-i dəyişdirilmişdir);

Qətnamə və qərardadların sabitliyi üzrə 2015 və 2016-cı illərin birinci yarımilinə dair göstəricilərin müqayisəsi onu göstərir ki, Babək, Culfa, Ordubad və Şahbuz rayon məhkəmələrinin sabitlik göstəricisi 2015-ci ilin birinci yarısı ilə müqayisədə aşağı düşmüş, Naxçıvan Şəhər Məhkəməsinin, eləcə də Şərur və Kəngərli rayon məhkəmələrinin qətnamə və qərardadlarının sabitlik göstəricisi isə yüksəlmişdir. Sədərək Rayon Məhkəməsinin qətnamə və qərardadlarının sabitlik göstəricisi isə dəyişməmişdir.

Qətnamə və qərardadların sabitlik göstəricisi, yəni buraxılan məhkəmə səhvlərinin həcmi bir çox amillərlə yanaşı, həm də məhkəmənin üzərinə düşən iş yükündən də asılı olmuşdur.

Muxtar respublika məhkəmələrinin mülki mühakimə icraatı üzrə iş yükünə görə təsnif etdikdə müəyyən olunur ki, ötən ilin birinci yarısında olduğu kimi 2016-cı ilin birinci yarısında da ən çox mülki işə Naxçıvan Şəhər Məhkəməsində baxılmışdır. Belə ki, bu məhkəmədə 2015-ci ilin birinci yarısında 219 mülki işə, 2016-cı ilin birinci yarısında isə 224 mülki işə baxılmışdır.

Digər məhkəmələr üzrə iş yükü aşağıdakı kimi olmuşdur:

- Şərur Rayon Məhkəməsi – 134 iş (2015-ci ilin birinci yarısında 148 işə baxılmışdır);
- Babək Rayon Məhkəməsi – 82 iş (2015-ci ilin birinci yarısında 88 işə baxılmışdır);
- Şahbuz Rayon Məhkəməsi – 81 iş (2015-ci ilin birinci yarısında 73 işə baxılmışdır);
- Kəngərli Rayon Məhkəməsi – 64 iş (2015-ci ilin birinci yarısında 52 işə baxılmışdır);
- Ordubad Rayon Məhkəməsi – 39 iş (2015-ci ilin birinci yarısında 49 işə baxılmışdır);

- Culfa Rayon Məhkəməsi – 68 iş (2015-ci ilin birinci yarısında 45 işə baxılmışdır);
- Sədərək Rayon Məhkəməsi – 3 iş (2015-ci ilin birinci yarısında 11 işə baxılmışdır);

Göründüyü kimi 2015-ci ilin birinci yarısı ilə müqayisədə 2016-cı ilin birinci yarısında Naxçıvan Şəhər Məhkəməsində, eləcə də Culfa, Şahbuz və Kəngərli rayon məhkəmələrinin iş yükü artmış, Şərur, Babək, Ordubad və Sədərək rayon məhkəmələrinin iş yükü isə azalmışdır.

2016-cı ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında baxılan mülki işlər üzrə qəbul olunmuş qətnamə və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasına 9 kassasiya şikayəti verilmiş, həmin şikayətlərdən 6 işə mahiyyəti üzrə baxılaraq Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının 6 qətnaməsi dəyişdirilmədən saxlanılmış, 3 kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2016-cı ilin birinci yarısında qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının sabitlik göstəricisi 100% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

## ***İNZİBATİ-İQTİSADİ KOLLEGİYADAN***

### Məhkəmə fəaliyyətinə dair 2016-cı ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili

2016-cı ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinin icraatına ümumilikdə inzibati və iqtisadi mübahisələrlə bağlı 84 iş daxil olmuş, onlardan 14 iş 2015-ci ildən cari ilə qalıq qalmış, 70 iş isə 2016-cı ilin birinci yarısında daxil olmuşdur. Daxil olmuş işlərdən 29 iş iqtisadi mübahisələrə dair, 55 iş isə inzibati mübahisələrə dair mülki işlər olmuşdur.

İqtisadi mübahisələr üzrə işlərdən 17 işə mahiyyəti üzrə baxılmaqla 10 iş üzrə iddia təmin edilmiş, 2 iş üzrə iddia rədd edilmiş, 2 işin icraatına xitam verilmiş, 3 iş üzrə iddia baxılmamış saxlanılmışdır. 7 iş üzrə iddia ərizəsi geri qaytarılmış, 5 mülki iş 2016-cı ilin ikinci yarısına qalıq qalmışdır.

İnzibati mübahisələr üzrə işlərdən 25 işə mahiyyəti üzrə baxılmaqla 7 iş üzrə iddia təmin, 2 iş üzrə iddia rədd edilmiş, 16 işin icraatına xitam verilmişdir. 15 iş üzrə iddia ərizəsi geri qaytarılmış, 15 iş isə 2016-cı ilin ikinci yarısına qalıq qalmışdır.

2015-ci ilin birinci yarısı ilə müqayisədə 2016-cı ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinin icraatına inzibati və iqtisadi mübahisələrlə bağlı daxil olan işlərin sayı 9,1% artmışdır. Belə ki, 2015-ci ilin birinci yarısında İnzibati-İqtisadi Məhkəmənin icraatına inzibati və iqtisadi mübahisələrlə bağlı 77 iş daxil olmuşdur.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinə 2016-cı ilin birinci yarısında daxil olan işlərin böyük əksəriyyətini məcburetmə və hüquqi şəxslər və fərdi sahibkarlıq fəaliyyəti subyektləri arasında olan inzibati və iqtisadi mübahisələr haqqında iddialara dair (53 iş – yəni 63,09%) işlər təşkil etmişdir.

2016-cı ilin birinci yarısında inzibati-iqtisadi kollegiyada inzibati mübahisələrlə bağlı 8 apellyasiya şikayətinə baxılmışdır. Kollegiyada həmin şikayətlərə baxılaraq 2 iş üzrə 2 qərar ləğv edilmiş, 6 iş üzrə 3 qərar və 3 qərardad isə dəyişdirilmədən qüvvədə saxlanılmışdır. 2015-ci ilin birinci yarısında inzibati-iqtisadi kollegiyada inzibati mübahisələrlə bağlı 8 apellyasiya şikayətinə baxılmışdır. Göründüyü kimi 2015-ci ilin birinci yarısı ilə müqayisədə 2016-cı ilin birinci yarısında kollegiyada baxılan inzibati mübahisələrlə bağlı işlərin sayı dəyişməmişdir.

2016-cı ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsinin iqtisadi mübahisələrə dair mülki işlərlə bağlı çıxar-

dığı qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2 apellyasiya şikayətinə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında baxılaraq 1 qərardad qüvvədə saxlanılmış, 1 apellyasiya şikayətinin icraatına isə xitam verilmişdir. 2015-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında iqtisadi mübahisələrlə bağlı 2 işə baxılmışdır. Göründüyü kimi 2015-ci ilin birinci yarısı ilə müqayisədə 2016-cı ilin birinci yarısında kollegiyada baxılan iqtisadi mübahisələrə dair mülki işlərin sayı dəyişməmişdir.

2016-cı ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında baxılan inzibati mübahisələrə dair işlər üzrə qəbul olunmuş qərar və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasına 3 kassasiya şikayəti verilmiş, həmin kassasiya şikayətləri hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasının icraatında baxılmaqdadır.

2016-cı ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasında baxılan iqtisadi mübahisələrə dair mülki işlər üzrə qəbul olunmuş qətnamə və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasına 1 kassasiya şikayəti verilmiş, həmin kassasiya şikayəti hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin inzibati-iqtisadi kollegiyasının icraatında baxılmaqdadır.

≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈
≈ ≈ ≈ ≈ ≈ ≈
≈ ≈ ≈

***CİNAYƏT KOLLEGİYASINDAN***

## Məhkəmə fəaliyyətinə dair 2016-cı ilin birinci yarısının yekunları üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid olan muxtar respublika məhkəmələri tərəfindən 2016-cı ilin birinci yarısında 17 nəfərin barəsində 15 cinayət işinə mahiyyəti üzrə baxılmışdır. Müqayisə üçün qeyd edək ki, 2015-ci ilin birinci yarısında həmin məhkəmələr tərəfindən 8 nəfərin barəsində 8 cinayət işinə baxılmışdır.

Birinci instansiya məhkəmələri tərəfindən 2016-cı ilin birinci yarısında baxılmış 15 cinayət işi üzrə 17 nəfərin barəsində ittiham hökmləri çıxarılmışdır.

*İttiham hökmünün çıxarılması ilə nəticələnən işləri* obyektə görə qruplaşdırdıqda 2015 və 2016-cı illərin birinci yarısına dair göstəricilər aşağıdakı kimi olmuşdur:

| **Cinayətlərin növü** | **2015-ci ilin birinci yarısı üzrə göstəricilər (şəxslərin və işlərin sayı)** | **2016-cı ilin birinci yarısı üzrə göstəricilər (şəxslərin və işlərin sayı)** |
|---|---|---|
| Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər | 2 / 2 | 2 / 4 |
| Həyat və sağlamlıq əleyhinə olan cinayətlər | 1 / 1 | 3 / 3 |
| Mülkiyyət əleyhinə olan cinayətlər | 1 / 1 | 4 / 4 |
| İqtisadi fəaliyyət sahəsində olan cinayətlər | 3 / 3 | 4 / 4 |
| İdarəetmə qaydası əleyhinə olan cinayətlər | - | 2 / 2 |

Cədvəldən göründüyü kimi 2015-ci ilin birinci yarısından fərqli olaraq 2016-cı ilin birinci yarısında həyat və sağlamlıq əleyhinə olan, iqtisadi fəaliyyət sahəsində olan və mülkiyyət əleyhinə olan cinayətlər artmış, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı olan cinayətlər üzrə göstəricilər isə dəyişməmişdir. Ötən yarımillikdən fərqli olaraq 2016-cı ilin birinci yarısında idarəetmə qaydası əleyhinə olan cinayətlərə dair işlər daxil olmuşdur.

2015 və 2016-cı illərin birinci yarısında məhkumlara təyin olunan cəzalar aşağıdakı kimi olmuşdur:

| Təyin olunan əsas cəzaların növləri | 2015-ci ilin birinci yarısı üzrə məhkumların sayı | 2016-cı ilin birinci yarısı üzrə məhkumların sayı |
|---|---|---|
| Müəyyən müddətə azadlıqdan məhrum etmə | 6 nəfər | 16 nəfər |
| Azadlıqdan məhrum etməyə şərti məhkum etmə | 1 nəfər | 1 nəfər |

Cədvəldən göründüyü kimi müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilənlər 2015-ci ilin birinci yarısında məhkum edilmiş şəxslərin 85,71%-ni, 2016-cı ilin birinci yarısında isə məhkum olunanların 94,12%-ni təşkil etmiş, yəni 2015-ci ilin birinci yarısı ilə müqayisədə 2016-cı ilin birinci yarısında cəzaların ümumi kütləsində azadlıqdan məhrum etmə cəzasının həcmi 8,41% artmış, azadlıqdan məhrum etmə ilə bağlı olmayan həcmi isə əksinə 8,41% azalmışdır (ümumilikdə götürüldükdə).

2015 və 2016-cı illərin birinci yarısında baxılan cinayət işlərinə dair göstəricilər ayrı-ayrılıqda muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə aşağıdakı kimi olmuşdur:

| Məhkəmənin adı | 2015-ci ilin birinci yarısı üzrə (məhkumun və cinayət işinin sayı) | 2016-cı ilin birinci yarısı üzrə (məhkumun və cinayət işinin sayı) |
|---|---|---|
| Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi | 1 nəfər / 1 iş | 3 nəfər / 3 iş |
| Naxçıvan Şəhər Məhkəməsi | 4 / 4 | 3 / 3 |
| Culfa Rayon Məhkəməsi | 2 / 2 | 4 / 4 |
| Şərur Rayon Məhkəməsi | - | - |
| Babək Rayon Məhkəməsi | - | 1 / 1 |
| Kəngərli Rayon Məhkəməsi | - | 1 / 1 |
| Ordubad Rayon Məhkəməsi | 1 / 1 | 1 / 3 |
| Sədərək Rayon Məhkəməsi | - | 2 / 2 |
| Şahbuz Rayon Məhkəməsi | - | - |

Cədvəldən göründüyü kimi 2015-ci ilin birinci yarısından fərqli olaraq 2016-cı ilin birinci yarısında Naxçıvan Şəhər Məhkəməsində baxılmış cinayət işlərinin sayı azalmış, Culfa Rayon Məhkəməsi və Naxçıvan Muxtar

Respublikasının Ağır Cinayətlər Məhkəməsində baxılmış cinayət işlərinin sayı artmış, Ordubad Rayon Məhkəməsinin icraatına daxil olan cinayət işləri üzrə göstəricilər isə dəyişməmişdir. Ötən ildən fərqli olaraq Kəngərli, Sədərək və Babək rayon məhkəmələrinin icraatına cinayət işi daxil olmuşdur. Şahbuz və Şərur rayon məhkəmələrinin icraatına isə ötən ildə olduğu kimi cinayət işi daxil olmamışdır.

2016-cı ilin birinci yarısında birinci instansiya məhkəmələrində baxılmış cinayət işləri üzrə çıxarılan hökmlərdən verilmiş apellyasiya şikayətlərinə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılaraq 4 hökm dəyişdirilmədən qüvvədə saxlanılmış, 1 hökm isə dəyişdirilmişdir.

Dəyişdirilən hökm muxtar respublikanın birinci instansiya məhkəmələrinin 2016-cı ilin birinci yarısında çıxardıqları bütün hökmlərin 6,67%-ni təşkil etdiyi üçün məhkəmələr üzrə hökmlərin sabitlik göstəricisi 93,33% olmuşdur.

Müqayisə üçün qeyd edək ki, 2015-ci ilin birinci yarısında birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış hökmlərdən ləğv ediləni və dəyişdiriləni olmadığından, hökmlərin sabitlik göstəricisi 100% təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən xüsusi icraat qaydasında 2016-cı ilin birinci yarısında 23 işə (materiala) baxılmışdır. 2015-ci ilin birinci yarısı ilə müqayisədə bu göstərici 35,29% artmışdır (həmin dövrdə 17 işə baxılmışdır).

2016-cı ilin birinci yarısında xüsusi icraat qaydasında həll edilən işlərdən 12 iş (52,17%) həbs qətimkan tədbirinin seçilməsi, 3 iş (13,04%) cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə, 1 iş (4,35%) amnistiyanın tətbiq edilməməsi və ya düzgün tətbiq edilməməsi, 2 iş (8,70%) xəstəliyə və hökmün icra müddətinin başa çatmasına görə cəza çəkməkdən azad etmə, 1 iş (4,35%) CPM-in 152-ci maddəsində nəzərdə tutulmuş hallarda tutulma və 4 iş (17,39%) cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi barədə olmuşdur.

Muxtar respublikanın rayon (şəhər) məhkəmələri üzrə xüsusi icraat qaydasında baxılan işlərlə əlaqədar 2015 və 2016-cı illərin birinci yarımilinin göstəriciləri aşağıdakı cədvəldə təsvir edildiyi kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2015-ci ilin birinci yarımili üzrə (şəxslərin və işlərin sayı)** | **2016-cı ilin birinci yarımili üzrə (şəxslərin və işlərin sayı)** |
|---|---|---|
| Naxçıvan Şəhər Məhkəməsi | 4 nəfər / 4 iş | 11 nəfər / 11 iş |
| Şərur Rayon Məhkəməsi | - | - |
| Babək Rayon Məhkəməsi | - | - |

| | | |
|---|---|---|
| Culfa Rayon Məhkəməsi | 3 / 3 | 2 / 2 |
| Ordubad Rayon Məhkəməsi | - | 1 / 1 |
| Kəngərli Rayon Məhkəməsi | 10 / 10 | 9 / 9 |
| Şahbuz Rayon Məhkəməsi | - | - |
| Sədərək Rayon Məhkəməsi | - | - |

2016-cı ilin birinci yarısında muxtar respublikanın rayon (şəhər) məhkəmələrinin xüsusi icraat qaydasında çıxardıqları qərarlardan 1 apellyasiya protesti verilmişdir. Culfa Rayon Məhkəməsinin qərarından verilmiş həmin protest təmin edilərək qərar ləğv edilmişdir.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrində 2016-cı ilin birinci yarısında 201 nəfərin barəsində 200 inzibati xəta haqqında işə baxılmışdır.

2015-ci ilin birinci yarısı ilə müqayisədə 2016-cı ilin birinci yarısında baxılan inzibati xəta haqqında işlərin sayı 5,66%, inzibati xəta törətmiş şəxslərin sayı isə 7,79% azalmışdır (2015-ci ilin birinci yarısında 218 nəfərin barəsində 212 inzibati xəta haqqında işə baxılmışdır).

2016-cı ilin birinci yarısında barəsində inzibati tənbeh tətbiq olunan şəxslərdən 31 nəfərə (15,42%) inzibati həbs, 9 nəfərə (4,48%) inzibati cərimə, 3 nəfərə (1,49%) xəbərdarlıq, 59 nəfərə (29,35%) inzibati xəta törətmiş fiziki şəxsin ona verilmiş xüsusi hüququnun məhdudlaşdırılması növündə inzibati tənbeh tədbirləri tətbiq olunmuş, 99 (49,25%) nəfərin barəsində 99 inzibati xəta haqqında işin icraatına isə xitam verilmişdir.

İnzibati tənbeh tədbirinin tətbiqinə dair qərarın çıxarılması ilə nəticələnən inzibati xətaları növünə görə qruplaşdırdıqda 2015 və 2016-cı illərin birinci yarımilinə dair göstəricilər aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:

| **İnzibati xətanın növləri** | **2015-ci ilin birinci yarımili üzrə (şəxs və işlərin sayı)** | **2016-cı ilin birinci yarımili üzrə (şəxs və işlərin sayı)** |
|---|---|---|
| Xırda xuliqanlıq | 14 nəfər / 14 iş | 8 nəfər/ 8 iş |
| Aksiz markası olmayan məhsulların, malların satılması | 7 nəfər / 7 iş | 1 nəfər / 1 iş |
| Qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma | 15 nəfər / 15 iş | - |
| Nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxslər tərəfindən nəqliyyat vasitələrinin idarə edilməsi | - | 3 nəfər / 3 iş |
| Xırda talama | 1 nəfər / 1 iş | 1 nəfər / 1 iş |

| | | |
|---|---|---|
| Polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama | 8 nəfər / 6 iş | 8 nəfər / 7 iş |
| Qumar oyunu | 12 nəfər / 8 iş | - |
| Məhkəmənin xüsusi qərardadı (qərarı) və ya hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) təqdimatı üzrə tədbirlər görülməməsi | 32 nəfər / 32 iş | 22 nəfər/ 22 iş |
| Digər inzibati xətalar | 129 nəfər/129 iş | 158 nəfər/158 iş |

Göründüyü kimi 2015-ci ilin birinci yarısı ilə müqayisədə 2016-cı ilin birinci yarısında rayon (şəhər) məhkəmələri tərəfindən baxılan xırda xuliqanlıqla bağlı barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 42,86%, aksiz markası olmayan məhsulların, malların satılması ilə bağlı barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 85,71%, məhkəmənin xüsusi qərardadı (qərarı) və ya hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) təqdimatı üzrə tədbirlər görülməməsi ilə əlaqədar barəsində inzibati tənbeh tətbiq olunan şəxslərin sayı 31,25% azalmış, digər inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tədbiri tətbiq olunan şəxslərin sayı 22,48% artmış, polis işçisinin və ya hərbi qulluqçunun qanuni tələbinə qəsdən tabe olmama və xırda talama ilə bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı dəyişməmişdir. 2015-ci ilin birinci yarısından fərqli olaraq 2016-cı ilin birinci yarısında qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma və qumar oyunu ilə bağlı olan inzibati xətaya dair işlər daxil olmamış, nəqliyyat vasitələrini idarə etmək hüququ olmayan şəxslər tərəfindən nəqliyyat vasitələrinin idarə edilməsi ilə bağlı olan inzibati xətaya dair işlər isə daxil olmuşdur.

Baxılmış inzibati xətalara dair işlər üzrə muxtar respublika məhkəmələrinin 2015 və 2016-cı illərin birinci yarımilinə dair göstəriciləri aşağıdakı cədvəldə təsvir olunduğu kimi olmuşdur:

| **Məhkəmənin adı** | **2015-ci ilin birinci yarımili üzrə (şəxs və işlərin sayı)** | **2016-cı ilin birinci yarımili üzrə (şəxs və işlərin sayı)** |
|---|---|---|
| Naxçıvan Şəhər Məhkəməsi | 67 nəfər / 67 iş | 60 nəfər / 60 iş |
| Şərur Rayon Məhkəməsi | 41 / 35 | 32 / 31 |
| Babək Rayon Məhkəməsi | 32 / 32 | 47 / 47 |
| Culfa Rayon Məhkəməsi | 16 / 16 | 15 / 15 |
| Ordubad Rayon Məhkəməsi | 24 / 24 | 6 / 6 |
| Kəngərli Rayon Məhkəməsi | 14 / 14 | 9 / 9 |
| Şahbuz Rayon Məhkəməsi | 20 / 20 | 30 / 30 |
| Sədərək Rayon Məhkəməsi | 4 / 4 | 2 / 2 |

2016-cı ilin birinci yarısında muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən baxılmış inzibati xətalara dair işlər üzrə çıxarılmış qərarlardan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına 2 apellyasiya şikayəti verilmişdir.

Babək Rayon Məhkəməsinin 1 qərarından verilən apellyasiya şikayətinə baxılaraq qərar dəyişdirilmədən qüvvəsində saxlanılmış, Ordubad Rayon Məhkəməsinin 1 qərarından verilən apellyasiya şikayətinə isə baxılaraq qərar ləğv edilmişdir.

Muxtar respublikanın şəhər və rayon məhkəmələri tərəfindən 2016-cı ilin birinci yarısında inzibati xətalara dair işlər üzrə çıxarılan qərarların 0,5%-i ləğv edildiyindən qərarların sabitlik göstəricisi 99,5% təşkil etmişdir.

2016-cı ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılan işlər üzrə çıxarılan qərarlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasına 1 kassasiya şikayəti verilmiş, həmin şikayətə Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasında baxılaraq 1 qərar dəyişdirilmədən saxlanılmışdır.

Beləliklə, 2016-cı ilin birinci yarısında qəbul edilən qərarlardan dəyişdirilən və ya ləğv edilən olmadığından Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasının sabitlik göstəricisi 100% təşkil etmişdir.

≈≈≈≈≈
≈≈≈

## ***HƏRBİ KOLLEGİYADAN***

### Hərbi kollegiyanın 2016-cı ilin birinci yarısının yekunları üzrə fəaliyyətinin nəticələrini əks etdirən statistik məlumatlar

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasında 2016-cı ilin birinci yarısında 6 nəfərin barəsində 6 cinayət işi üzrə apellyasiya şikayətlərinə baxılmışdır. 2015-ci ilin birinci yarısında isə kollegiyada 9 nəfərin barəsində 7 cinayət işi üzrə apellyasiya şikayətlərinə baxılmışdır.

Göründüyü kimi 2015-ci ilin birinci yarısı ilə müqayisədə 2016-cı ilin birinci yarısında hərbi kollegiyanın icraatına daxil olan işlərin sayı 14,28% azalmışdır.

Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsində çıxarılmış ittiham hökmlərindən verilmiş apellyasiya şikayətləri cinayətlərin təsnifatına görə böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlər üzrə işlərdən olmuşdur.

Məhkumların təqsirli bilindikləri konkret əməllərə gəldikdə mübahisələndirilən hökmlərlə iki nəfər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 332.1, bir nəfər 332.2.1 və 332.2.3, bir nəfər 331.3 və 150.1, bir nəfər 333.3 və 328.1, bir nəfər isə 178.1-ci maddələri ilə məhkum edilmişlər.

Barəsində apellyasiya qaydasında işə baxılmış məhkumlardan 1 nəfər gizir, 2 nəfər çavuş, 3 nəfər isə əsgər olmuşdur.

Apellyasiya şikayətlərinə baxılması zamanı məhkəmə iclasları məhkəmə istintaqı aparılmadan keçirilməklə apellyasiya şikayətlərinə baxılması nəticəsində 1 hökm dəyişdirilmiş, 5 hökm isə dəyişdirilmədən qüvvəsində saxlanılmışdır.

2016-cı ilin birinci yarımilində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasında baxılan cinayət işləri üzrə çıxarılan qərarlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasına 2 kassasiya şikayəti verilmişdir. Kassasiya şikayətlərinə Azərbaycan Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasında baxılaraq 1 qərar dəyişdirilmədən saxlanılmış, 1 kassasiya şikayəti isə hazırda baxılmaqdadır.

Beləliklə, 2016-cı ilin birinci yarısında qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hərbi kollegiyasının sabitlik göstəricisi 100% təşkil etmişdir.

*Analitik və qanunvericiliyin sistemləşdirilməsi şöbəsi*



# İNSAN HÜQUQLARI VƏ MƏHKƏMƏ TƏCRÜBƏSİ

## İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icmalı

Bülletenin hər buraxılışında insan hüquq və azadlıqlarına dair məsələlər üzrə Avropa Məhkəməsinin hüquqi mövqeyini əks etdirən qərarlarının icmalı dərc olunur.

Bu sayımızda da oxucuların tanış olması məqsədilə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin "İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında" Avropa Konvensiyasının və onun protokollarının müvafiq maddələrinin pozuntusunun təsdiq edildiyi bir neçə qərarının icmalını təqdim edirik:

1. Avropa Məhkəməsinin ***"Velyo Velev Bolqarıstana qarşı"*** (Dördüncü Bölmə) (*Ərizə №* 16032/07*)* iş üzrə 27 may 2014-cü il tarixli qərarından

1-ci Protokolun 2-ci maddəsi

Təhsil hüququ

Həbsdə saxlanılan şəxsin həbsxana məktəbinə buraxılmaması: ***pozuntu baş verib***

*Faktlar* – 2005-ci ildə həbsdə saxlanılmış ərizəçi həbsxana məktəbinə getməsi barədə müraciət etmişdir. Onun müraciəti əvvəlcədən həbsxana müdiriyyəti, yekun olaraq isə Ali İnzibati Məhkəmə tərəfindən rədd edilmişdir. Həbsxana müdiriyyəti cavabı onunla əsaslandırmışdır ki, məhkumluğu olmuş ərizəçi məhkum edildiyi təqdirdə residivist olacaq və bununla residivist olmayan məhbuslardan ayrı saxlanmalıdır. Ali İnzibati Məhkəmə onun müraciətini başqa əsaslarla rədd etmişdir: qət edilmişdir ki, təhsil hüququ həbsdə saxlanılan şəxslərə deyil, yalnız məhkum olunmuş məhbuslara aiddir.

*Hüquqi məsələlər* – 1-ci Protokolun 2-ci maddəsi: Məhkəmə xatırlatmışdır ki, azadlıq hüququ istisna edilməklə, məhbuslar Konvensiya ilə təmin edilən bütün əsas hüquqlar və azadlıqlara malikdir. Nəticə etibarilə, ərizəçi hələ də 1-ci Protokolun 2-ci maddəsinə əsasən təhsil hüququna malik olmuşdur. Təhsil hüququ Bolqarıstan üzərində mövcud təhsil müəssisələrinə, o cümlədən həbsxana məktəblərinə getmək imkanını yaratmaq vəzifəsini müəyyən etmişdir. Nəticədə, Hökumətin ərizəçinin buraxılmamasının qabaqcadan məlum ola bilməsi, qanuni məqsəd güdməsi və bu məqsədə mütənasib olmasını göstərmək vəzifəsi vardır. Məhkəmə hesab etmişdir ki, məhkum

olunmuş məhbusların təhsil proqramlarında iştirak etmək hüququna malik olmasının və məhkum olunmuş məhbuslara dair müddəaların eyni qaydada həbsdə saxlanılan şəxslərə şamil olunmasının müvafiq qanunvericilikdə nəzərdə tutulduğu üçün ərizəçi barəsində məhdudiyyətin qabaqcadan məlum olması şübhə doğurur. Qanunvericilikdə dəqiq ifadələrin olmaması həmçinin ərizəçinin məktəbə getməsi barədə müraciətinin rədd edilməsi üçün dövlət orqanlarının müxtəlif əsaslar gətirməsinə səbəb olmuşdur: həbsxana müdiriyyəti və Ədliyyə Nazirliyi ərizəçinin potensial residivini vurğulamış, Ali İnzibati Məhkəmə isə ərizəçinin həbsdə saxlanılan şəxs statusuna diqqət yetirmişdir.

Ərizəçinin həbs edilmiş şəxs olduğuna görə onun məhkum edilmiş məhbuslarla birlikdə məktəbə getməsinin məqsədəuyğun olmadığı barədə birinci dəlillə əlaqədar olaraq Məhkəmə qeyd etmişdir ki, ərizəçi buna etiraz etməmiş və həbs edilmiş şəxslərin məhkum olunmuş məhbuslarla birlikdə məktəbə getməsi ilə onlara zərər vurulacağını təsdiq edən hər hansı sübut təqdim edilməmişdir. Hökumətin əsas gətirdiyi digər dəlillə, yəni ərizəçinin residivist kimi məhkum olunmaq riskinə görə onun residivist olmayan məhbuslarla bir məktəbə getməsinin onların maraqlarına cavab verməməsi ilə əlaqədar olaraq Məhkəmə xatırlatmışdır ki, ərizəçi təqsirsizlik prezumpsiyası hüququna malik olduğundan o, residivist sayıla bilməzdi. Qeyd edilənlər, habelə ərizəçinin orta təhsili bitirmək arzusu nəzərə alınaraq Məhkəmə müəyyən etmişdir ki, onun həbsxana məktəbinə buraxılmaması qabaqcadan kifayət qədər məlum olmamış, qanuni məqsəd güdməmiş və ya bu məqsədə mütənasib olmamışdır.

Nəticə: **pozuntu** (yekdilliklə).

Maddə 41: mənəvi zərərə görə 2000 avro.

≈≈≈

2. Avropa Məhkəməsinin ***“I.B. Yunanıstana qarşı”*** (Birinci seksiya) (*Ərizə №* 552/10*)* iş üzrə 03 mart 2013-cü il tarixli qərarından

Maddə 14

Ayrı-seçkilik

Həmkarlarının təzyiqi nəticəsində İÇV-ə yoluxmuş şəxsin işdən azad edilməsi: ***pozuntu baş verib***

*Faktlar* – 2005-ci ilin fevral ayında illik əmək məzuniyyəti zamanı ərizəçi insan immunçatışmazlığı virusuna (İÇV) yaxalandığını öyrənmişdir. Bu məlumat onun işlədiyi müəssisədə yayılmışdır. İş yoldaşları işəgötürənə seropozitiv bir şəxslə işləməyə məcbur olduqlarından şikayət etməyə başla-

mış və ərizəçinin işdən azad edilməsini tələb etmişlər. İşəgötürən müəssisə həkimini personala İÇV və onun yoluxma yolları barədə məlumatlandırmaq üçün dəvət etmişdir. Həkim görülməli ehtiyat tədbirləri barədə danışaraq işçiləri sakitləşdirməyə çalışmışdır. Buna baxmayaraq, işçilərin təxminən yarısı işəgötürənə məktubla müraciət etmiş, onu "onların səhhətini və iş hüququnun müdafiəsi üçün" ərizəçini işdən çıxarmağa dəvət etmişlər və bildirmişlər ki, əks halda müəssisədə hökm sürən harmonik atmosfer təhlükə altına düşə bilər. Ərizəçinin illik əmək məzuniyyətindən qayıtmasından iki gün əvvəl işəgötürən yunan hüququnda nəzərdə tutulan təzminatı ödəyərək ərizəçini işdən azad etmişdir. Ərizəçi məhkəməyə şikayət etmişdir. Kassasiya Məhkəməsi iş müqaviləsinin xitam edilməsinin qanunsuz olmadığını hesab etmiş və Apellyasiya Məhkəməsinin qərarını ləğv etmişdir.

*Hüquqi məsələlər* – Maddə 8 ilə birgə götürülmüş maddə 14

*a) Tətbiq edilənlik* – Ərizəçi dövlət orqanlarının onu, Dövlətin məsuliyyətinə səbəb olan işəgötürənin onun şəxsi həyatına müdaxiləsi faktına qarşı müdafiə etməməsindən şikayət edir. Şübhəsiz ki, həm iş münasibətləri, həm də İÇV-ə yoluxmuş şəxslərlə bağlı vəziyyətlər şəxsi həyat anlayışının əhatə dairəsinə düşür. Hazırkı işin spesifik xüsusiyyəti vardır: İÇV-li bir işçinin işdən azad edilməsi. Ərizəçinin işdən çıxarılma səbəbi iş yerində yaxşı atmosferin saxlanması göstərilsə də, əsas səbəbin onun seropozitivliyi olması aydındır. Məhz bu fakt iş yoldaşlarının ərizəçi işdə qalarsa, müəssisənin normal fəaliyyətini pozacaqları haqqında açıq-aydın şəkildə təhdidlərinə səbəb olmuşdur. Aydındır ki, ərizəçinin işdən azad edilməsi İÇV daşıyıcısı olsa belə heç bir xəstəlik simptomu göstərməyən bir şəxsin damğalanmasına gətirib çıxarmışdır. Bu tədbir onun şəxsiyyətinə hörmətə və nəticə etibarilə şəxsi həyatına ciddi şəkildə əks-təsir göstərmişdir. Belə əks-təsir həmçinin yeni işin axtarışı ilə bağlı qeyri-müəyyənlik və əvvəlki presedenti də nəzərə alsaq iş tapılması ilə bağlı perspektivlərin ağlabatan dərəcədə uzaq olması da əlavə olunur. Ərizəçinin işdən azad edildikdən sonra yeni iş tapması faktı onun şəxsi həyatını normal davam etdirə biləcəyi haqqında mübahisəli məsələlərdən doğan mənfi təsiri aradan qaldırmaq üçün kifayət deyil. Beləliklə, Maddə 8-lə birgə götürülmüş maddə 14 tətbiq ediləndir.

*b) Mahiyyət* – Ərizəçinin vəziyyəti müəssisənin digər işçilərinin vəziyyəti ilə müqayisə edilməlidir, çünki belə bir müqayisə rəftar fərqliliyi ilə bağlı şikayəti araşdırmaq üçün uyğundur. Aydındır ki, ərizəçi iş yoldaşlarının hər hansı birindən daha əlverişsiz vəziyyətə salınmışdır və bunun səbəbi onun seropozitivliyidir. Kiyutin qərarında Məhkəmə hesab etmişdir ki, bu xəstəliyə yoluxmanın yolları barədə məlumatın olmaması virus daşıyıcıları-

nın damğalanmasına və cəmiyyətdən təcrid olunmasına gətirib çıxaran yanlış mülahizələrin artmasına səbəb olur. Məhkəmə əlavə etmişdir ki, bu səbəbdən İÇV-li şəxslər müdafiəyə ehtiyacı olan qruplardır və bu şəxslərin seropozitivliyi ilə bağlı xüsusi rəftarın tətbiqi ilə bağlı tədbirlərin görülməsində Dövlətlərin mülahizə səlahiyyəti məhduddur. Bir tərəfdən işəgötürən işçilərinin təzyiqi səbəbi ilə ərizəçinin müqaviləsinə xitam vermişdir. Bu təzyiqin mənbəyində ərizəçinin seropozitivliyi və bu seropozitivliyin işçilərdə oyatdığı narahatlıq durur. Digər tərəfdən müəssisənin işçiləri müəssisə həkimi tərəfindən ərizəçi ilə iş münasibətləri çərçivəsində heç bir yoluxma təhlükəsi mövcud olmaması barədə məlumatlandırılmışlar.

Apellyasiya Məhkəməsi aydın bir şəkildə qəbul etmişdir ki, ərizəçinin seropozitivliyi onun işini icra etmək qabiliyyətinə təsir etmir və müqaviləsinin dərhal ləğv edilməsini əsaslandıracaq mənfi təsirə malik deyildi. Apellyasiya Məhkəməsi həmçinin qəbul etmişdir ki, işçilərin göstərdikləri təzyiq müəssisənin mövcudluğunu təhdid etmirdi. Beləliklə, işçilərin ehtimal edilən və ya ifadə edilən yanlış mülahizələri seropozitiv bir işçinin müqaviləsinə xitam vermək üçün yalnız bəhanə hesab edilə bilər. Belə hallarda işəgötürənin maraqlarının müdafiə edilməsi ehtiyacı ilə müqavilədə daha zəif tərəf olan və seropozitivliyi səbəbi ilə bu zəifliyi daha da artan işçinin maraqlarının müdafiə edilməsi ehtiyacı əsaslı şəkildə balanslaşdırılmalıdır. Kassasiya Məhkəməsi isə Apellyasiya Məhkəməsindən fərqli olaraq sözügedən bütün maraqları Apellyasiya Məhkəməsi qədər müfəssəl və dərin bir şəkildə balanslaşdırmamışdır. İşin əhəmiyyəti və yeniliyinə baxmayaraq, kifayət qədər yığcam şəkildə ifadə edilmiş əsaslarla Kassasiya Məhkəməsi bildirmişdir ki, işdən azad edilmə sözün yaxşı mənasında işəgötürənin maraqlarına tamamilə uyğundur. Belə ki, işəgötürən bu qərarı müəssisədə sakitliyi bərpa etmək və onun normal fəaliyyətini təmin etmək üçün vermişdir. Kassasiya Məhkəməsi əmək müqaviləsinin icrası üçün ərizəçinin xəstəliyinin heç bir təsirinin olmaması faktını təkzib etməsə də, qərarını, işçilərin açıq-aydın şəkildə qeyri-dəqiq mühakiməsinə, yəni ərizəçinin xəstəliyinin "yoluxucu" xarakteri barədə qorxularına haqq qazandıracaq şəkildə əsaslandırmışdır. Bu zaman Kassasiya Məhkəməsi müəssisənin normal fəaliyyəti ideyasını işçilərin anladığı şəkildə nəzərdə tutmuşdur. Nəhayət, ərizəçinin ilkin tələbi, həm birinci instansiya, həm də apellyasiya məhkəməsi tərəfindən rədd edilən müəssisəyə geri dönmək tələbi olsa da, onun kassasiya şikayəti apellyasiya məhkəməsi tərəfindən təyin edilmiş kompensasiya tələbi ilə məhdudlaşdırılmışdır. Bununla yanaşı, Məhkəmə hesab edir ki, Kassasiya Məhkəməsinin hazırkı işdə aşağı məhkəmələrin

qərarını təsdiqləyəcəyi təqdirdə və xüsusilə də Yunanıstanda seropozitiv şəxslərin iş yerində müdafiəsini təmin edən qanunun və ya dəqiq müəyyən olunmuş məhkəmə təcrübəsinin mövcud olması halında, bu müəssisənin işçilərinin göstərəcəkləri münasibət haqqında əvvəlcədən fikir söyləmək mümkün deyildir.

Nəticədə Məhkəmə hesab edir ki, Kassasiya Məhkəməsi işəgötürənin maraqlarının işçinin maraqlarından üstün tutması səbəblərini kifayət qədər əsaslandırmamış və tərəflərin hüquqlarını Konvensiyaya uyğun şəkildə balanslaşdırmamışdır.

Nəticə: **pozuntu** (yekdilliklə).

Maddə 41 : mənəvi ziyana görə 8.000 avro; maddi ziyana görə 6.339,18 avro.

≈ ≈ ≈

3. Avropa Məhkəməsinin ***"Zolotas Yunanıstana qarşı"*** (Birinci seksiya) (*Ərizə №* 66610/09*)* iş üzrə 29 yanvar 2013-cü il tarixli qərarından

1 saylı Protokolun 1-ci maddəsi

1 saylı Protokolun 1-ci maddəsinin 1-ci bəndi

Mülkiyyətə hörmət

İddia müddəti keçən passiv bank hesablarında qalan məbləğlərin Dövlətə keçməsi: ***pozuntu baş verib***

*Faktlar* – Yunanıstanda bir bank hesabı açandan sonra ərizəçi ölkəni tərk etməyə məcbur olmuşdur. Geri döndüyündə həmin bank iyirmi ildən bəri hesabda heç bir əməliyyat aparılmaması səbəbinə görə ona hesabındakı pulu verməkdən imtina etmişdir. 2003-cü ildə ərizəçi məhkəmə iddiası qaldırmış və məbləği tələb etmişdir (30 550 avro). Yerli məhkəmələr hesab etmişdir ki, ərizəçinin banka qarşı bütün tələbləri ilə bağlı mülki hüquqda nəzərdə tutulan iddia müddəti ötmüşdür və mübahisəli məbləğ passiv bank hesablarının sahibi hesab olunan Dövlətə keçməlidir. 2009-cu ildə ərizəçinin kassasiya şikayəti rədd edilmişdir.

*Hüquqi məsələlər* – 1 saylı Protokolun 1-ci maddəsi : 2003-cü ildə hesabının vəziyyəti ilə bağlı banka müraciət edərkən ərizəçi öyrənir ki, 1981-ci ilin ikinci rübündən etibarən hesabında heç bir əməliyyat olmadığından onun bütün iddialarının müddəti ötmüşdür. Yerli məhkəmə qərarlarından görünür ki, ərizəçi bank hesabını açarkən depozit müqaviləsi bağlamışdır. Bu müqavilədən doğan iddialara mülki məcəllədə nəzərdə tutulan iyirmi illik iddia müddəti tətbiq olunmuşdur. Yerli məhkəmələr iyirmi il ərzində pul depozitləri və onların faizlərinin hesab sahibi tərəfindən tələb olunmaması və ya hesabda heç bir əməliyyat aparılmaması halında bu məbləğin Dövlətə keçmə-

sini nəzərdə tutan qanunvericiliyi tətbiq etmişlər. Apellyasiya Məhkəməsi həmçinin hesab etmişdir ki, faizlərin bank kitablarında qeyd olunması müddətin kəsilməsi hesab olunmadığından iddia müddəti kəsilməmişdi və ərizəçinin iddia etdiyi kimi fors major səbəbi ilə dayandırılmamışdır.

Ərizəçinin öz bank hesabı ilə bağlı iddialarının müddətinin keçməsi onun mülkiyyət hüququna bir qəsddir. İddia müddətinin tətbiq olunmasının legitim məqsədi vardır: uzaq keçmişdə yaranan və mövcudluğu qeyri-müəyyən olan hüquqi münasibətlərin cəmiyyətin xeyrinə ləğv olunması. İddia müddəti sistemi ağlabatandır: iyirmi illik müddət uzun müddətdir və maraqlı şəxsə bu iddia müddətini dayandırmaq çətin və ya qeyri-müəyyən deyildir. Bununla belə, bank hesabında müəyyən müddət ərzində heç bir əməliyyat edilməməsi səbəbi ilə tətbiq olunan iddia müddəti kimi radikal bir tədbir faizlərin bankda qeydiyyata alınmasının hesabda əməliyyat hesab edilməməsi barədə yurisprudensiya ilə birgə bank hesabı sahiblərini, xüsusilə əgər mülki hüquqla və bank hüququ ilə tanış olmayan fiziki şəxslərdən söhbət gedərsə, bankla və Dövlətlə müqayisədə əlverişsiz vəziyyətə salınırlar. Mülki Məcəlləyə görə bankda pulu olan bir şəxs banka ondan istifadə hüququ verirsə, bank o məbləği saxlamalı və əgər məbləğdən istifadə edirsə, müqavilə müddəti bitdikdə depozit qoyana həmin məbləği qaytarmalıdır. Bank hesabı sahibi, xüsusilə əgər o faizlərin hesabına köçürüldüyünü görürsə, haqlı olaraq hesab edir ki, əmanətləri təhlükəsizdir. Onun qanuna uyması və öz mülkiyyət hüquqlarını müdafiə edə bilməsi üçün bankla bağladığı müqaviləni və ya maliyyə maraqlarını təhlükə altına qoyacaq hər hansı bir vəziyyət barədə xəbərdar olunacağını düşünməsi legitimdir. Belə etibar üzərində qurulan münasibətlər bank və onunla bağlı əməliyyatların ayrılmaz tərkib hissəsidir. Dövlətin vətəndaşı qorumasını və beləliklə, iddia müddətinin bitməsinin acı nəticələrini nəzərə alaraq bankların passiv hesab sahiblərini iddia müddətlərinin sonunun çatması barədə məlumatlandırması və beləliklə, şəxsə bank hesabında hər hansı əməliyyat etməklə iddia müddətini kəsmək imkanı tanıması üçün tədbirlər görmək kimi öhdəliyi var. Bu tip məlumatın verilməsinin tələb olunmaması cəmiyyətin maraqları və fərdi hüquqların müdafiəsi tələbi arasındakı ədalətli tarazlığı poza bilər. Bu məlumatı almaması ərizəçinin həddindən artıq ağır və qeyri-proporsional yük çəkməsinə səbəb olmuşdur. Buna nə qeyri-müəyyən hüquqi münasibətlərin ləğvi, nə də bank sisteminin yaxşı işləməsi ehtiyacı ilə haqq qazandırıla bilməz.

Nəticə: **pozuntu** (yekdilliklə).

Maddə 41 : maddi və mənəvi ziyana görə 15 000 Avro.

≈ ≈ ≈

4. Avropa Məhkəməsinin ***“Laduna Slovakiyaya qarşı”*** (III Bölmə) (*Ərizə №* 31827/02*)* iş üzrə 13 dekabr 2011-ci il tarixli qərarından

Maddə 14

Ayrı-seçkilik

Məhkum olunmuş şəxslərlə müqayisədə məhkəməyəqədər həbsdə saxlanılan şəxslərin görüş hüququ və televizordan istifadə məsələsində əsassız olaraq fərqli rəftara məruz qalması: ***pozuntu baş verib***

*Faktlar* – Ərizəçi məhkəmə araşdırmasına qədər 1 sentyabr 2001-ci ildən 9 fevral 2006-cı ilədək, yəni ona doqquz illik azadlıqdan məhrumetmə cəzası təyin edilənədək həbsdə saxlanılmışdı. Avropa Məhkəməsinə ünvanladığı şikayət ərizəsində o, bildirdi ki, həmin dövrdə məhkəməyəqədər həbsdə saxlanılan şəxslər görüş hüququ məsələsində məhkum olunmuş şəxslərlə eyni hüquqlara malik deyildilər və məhkum olunmuş şəxslərdən fərqli olaraq onlar televizordan istifadə edə bilməzdilər.

*Hüquqi məsələlər* – 8-ci maddə ilə birgə götürülməklə 14-cü maddənin tətbiqinin mümkünlüyü məsələsi: Həbsxanada ailə üzvləri ilə görüşlərə və televizora baxmağa qoyulan məhdudiyyətlər 8-ci maddədə nəzərdə tutulmuş şəxsi və ailə həyatına hörmət hüququnun tətbiqi dairəsinə düşür. Buna görə də 14-cü maddə bu işə şamil edilə bilər. Məhkəməyəqədər həbs 14-cü maddədə nəzərdə tutulan “digər əlamətlər” anlayışının tətbiq dairəsinə aiddir və məcburi qaydada və adətən müvəqqəti olaraq tətbiq olunmasına baxmayaraq, şəxsin fərdi durumu və yaşayışı ilə əlaqədar olan fərqli situasiyadan irəli gəlir. Bundan başqa, məhkəməyəqədər həbsdə saxlanılan şəxs olaraq ərizəçi məhkum olunmuş şəxslərlə müqayisədə nisbətən oxşar vəziyyətdə idi, çünki onun həbsxanada görüş hüququ və televizordan istifadə məsələsi ilə bağlı şikayətləri məhbusların hamısı üçün əhəmiyyətli olan məsələlərə aid idi.

Həmin dövrdə məhkəməyəqədər həbsdə saxlanılan şəxslərə ayda ən azı otuz dəqiqəlik görüş hüququ verilirdi, müqayisə üçün qeyd edək ki, məhkum olunmuş şəxslərə iki saatlıq görüş icazəsi verilirdi. Üstəlik, müvafiq dövrün xeyli hissəsi ərzində məhkum olunmuş şəxslərə tez-tez baş çəkilməsi və onlarla təmasların növü onların saxlanıldığı həbsxananın təhlükəsizlik rejiminin sərtlik dərəcəsindən asılı idi, halbuki məhkəməyəqədər həbsdə saxlanılan şəxslərin hamısına həbsdə saxlanılmalarının səbəblərindən və təhlükəsizlik mülahizələrindən asılı olmayaraq eyni rejim tətbiq edilirdi.

Məhkəmə rəftardakı bu fərqin obyektiv və əsaslı səbəbinin olması ilə razılaşmadı. “Həbsə alma” haqqında 1993-cü il tarixli Qanunun müddəaları həbsdə saxlanılan şəxslərin hüquqlarının məhdudlaşdırılmasının həbsdə saxlanmanın məqsədləri ilə və həbsxanada qaydanı təmin etmək zərurəti ilə

əsaslandırılmasını tələb edirdi, digər məhbusların təhlükəsizliyini və mülkiyyəti qorumaq məqsədi ilə məhkəməyəqədər həbsdə saxlanılan şəxslərin hüquqlarının məhkum olunmuş şəxslərə nisbətən daha çox məhdudlaşdırılmasına haqq qazandırmaq olmazdı və İşgəncələrin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Komitə (CPT) 1995 və 2000-ci illərdə Slovakiyaya səfərlərinə dair hesabatlarında belə tədbirləri tənqid etmişdi. Bundan başqa, məhbusun görüş hüququna qoyulan konkret məhdudiyyətləri bəzi hallarda təhlükəsizlik səbəbləri ilə və ya araşdırmanın qanuni maraqlarının qorunması ilə əsaslandırmaq olardı, amma bu məqsədlərə bütün məhbuslara təsir göstərməyən başqa vasitələrlə nail olmaq mümkün idi (həmin vasitələrin faktiki zəruriliyindən asılı olmayaraq). Məsələn, hər hansı konkret halda həbsdə saxlanılmanın müxtəlif kateqoriyalarından istifadə etmək, yaxud xüsusi məhdudiyyətlər tətbiq etmək olardı. Beynəlxalq sənədlərdə, məsələn, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda və 1987-ci il tarixli Avropa Penitensiar Qaydalarında məhkəməyəqədər həbsdə saxlanılan şəxslərin təqsirsizlik prezumpsiyasına hörmət edilməsinin zəruriliyi vurğulanıb, ərizəçinin məhkəməyəqədər həbsdə saxlanılma müddətinin bitməsindən az sonra qəbul edilmiş 2006-cı il tarixli Avropa Penitensiar Qaydalarında isə nəzərdə tutulub ki, bunun əksini tələb edən əsaslı səbəb yoxdursa, barəsində məhkəmə hökmü çıxarılmayan şəxslərin görüşlərinə və ailə üzvləri ilə və digər şəxslərlə ünsiyyətinə məhkum olunmuş şəxslərlə eyni qaydada icazə verilməlidir. Yuxarıdakı mülahizələri nəzərə alaraq Məhkəmə bu qənaətə gəldi ki, ərizəçinin görüşlərinə qoyulmuş məhdudiyyətlər qeyri-mütənasib idi.

Televizordan istifadə imkanının olmamasına gəlincə, Hökumət məhkəməyəqədər həbsdə saxlanılan şəxslərlə məhkum olunmuş şəxslər arasında qoyulan fərqi əsaslandırmaq üçün hər hansı obyektiv səbəb göstərə bilmədi, sonuncular üçün televizordan istifadə mədəni və maarifləndirici fəaliyyətlərin tərkib hissəsi sayılırdı.

Nəticə: **pozuntu baş verib** *(yekdilliklə).*

1 saylı Protokolun 1-ci maddəsi: Ərizəçinin həbsxana mağazasından əlavə ərzaq və digər məhsullar alması üçün ən azından qeydə alınmış borclarının əvəzini ödəyəcək miqdarda pul ödəməsinin şərt olması onun öz mülkiyyətindən maneəsiz istifadə hüququna müdaxilə təşkil edirdi. Bu müdaxilənin qanuni əsası vardı və borcun əvəzinin ödənilməsinin təmin edilməsi, şübhəsiz ki, ümumi maraqlara xidmət edirdi. Müdaxilənin mütənasibliyinə gəlincə, müdaxilə ərizəçinin həbsxanadakı hesabından vəsait ödəməklə həbsxana mağazasından əlavə ərzaq və digər məhsullar almaq imkanını

məhdudlaşdırsa da onu bu imkandan tam məhrum etməmişdi. Bundan başqa, ərizəçinin borclarının əvəzinin ödənilməsi tələbi dərmanlara, zəruri sanitariya əşyalarına, yazışmaq üçün materiallara, yaxud vergilərə və əmək haqlarına şamil olunmurdu. Müvafiq olaraq borcların ödənilməsi məsələsində iştirakçı dövlətlərə geniş qiymətləndirmə sərbəstliyi verildiyini nəzərə alsaq, müdaxilə qarşıya qoyulan qanuni məqsədə mütənasib idi.

Nəticə: **pozuntu baş verməyib** *(yekdilliklə)*.

Maddə 13: Məhkəmə qeyd edir ki, ərizəçinin Konvensiyanın maddi-hüquqi müddəaları ilə bağlı şikayətlərini yalnız o pozuntular baxımından qəbul olunan elan edib və araşdırıb ki, iddia edilən həmin pozuntular müvafiq qanunvericilikdəki nöqsanlardan irəli gəlirdi. Lakin 13-cü maddə daxili qanunvericilikdəki çatışmazlıqlara qarşı hüquqi müdafiə vasitəsi tələb edən maddə kimi şərh oluna bilməz.

Nəticə: **pozuntu baş verməyib** *(yekdilliklə)*.

Maddə 41: Mənəvi ziyana görə 9.000 avro təyin edildi.

**Mənbə:** *Avropa Məhkəməsinin Hudoc məlumat bazasının rəsmi internet səhifəsinin (http://hudoc.echr.coe.int/) materialları əsasında hazırlanmışdır.*



# NƏZƏRİYYƏ VƏ HÜQUQTƏTBİQETMƏ PROBLEMLƏRİ

## Daşınmaz əmlakla bağlı əqdlərin etibarsızlığına dair mülki hüquqi tənzimləmə: məhkəmə təcrübəsində qarşılaşılan çətinliklər və qanunvericilikdə nəzərdə tutulan həll yolları

Azərbaycan Respublikasının Konstitusiyasına əsaslanmaqla onun müddəalarını inkişaf etdirən mülki qanunvericilikdə mülki hüquq subyektlərinin bərabərliyi, iradə sərbəstliyi, həmçinin pozulmuş hüquqların bərpa edilməsi və mülki hüquqların məhkəmə müdafiəsi əsas prinsiplər kimi müəyyənləşdirilmişdir. Həmin prinsiplər mülkiyyət hüququ ilə yanaşı, digər əşya hüquqlarının elə tərzdə tarazlaşdırılmış və mütənasib müdafiəsini nəzərdə tutur ki, bu zaman ədalət prinsipinə uyğun olaraq nə mülkiyyətçinin, nə də müqavilə tərəfləri və ya üçüncü şəxslərin hüquqları və qanuni mənafelərinə xələl gəlməsin.

Mülkiyyət hüququ ilə bağlı təcrübədə ən çox rast gəlinən mübahisələrdən biri daşınmaz əmlaka olan hüquqlarla bağlıdır. Bu ilk növbədə daşınmaz əmlakın mülki dövriyyədəki xüsusi çəkisindən və insanların bu əmlak növünə olan ehtiyaclarından qaynaqlanır. Məhz bu səbəbdən qanunverici daşınmaz əmlaklarla bağlı mülki dövriyyənin sabitliyini, habelə bu sahədə hüquqi-müəyyənlik prinsipinin bərqərar olmasını təmin etmək məqsədilə daşınmaz əmlaklara olan hüquqların qeydiyyatının digər əmlak növləri ilə müqayisədə daha sərt formal tələblərini müəyyən etmişdir. Belə ki, mülki qanunvericiliyə əsasən mülkiyyət hüququ və daşınmaz əmlaka olan digər hüquqlar, bu hüquqların məhdudlaşdırılması, əmələ gəlməsi, başqasına keçməsi və xitamı dövlət qeydiyyatına alınmalıdır. Daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilən və aparılan daşınmaz əmlakın dövlət reyestrində həyata keçirilir.

Daşınmaz əmlaka hüquqların əmələ gəlməsinin əsasları Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (bundan sonra – AR MM) 139-1-ci maddəsində sadalanmışdır. Bunların içərisində ən geniş yayılan əsas kimi daşınmaz əmlakların özgəninkiləşdirilməsini nəzərdə tutan əqdlər – alqı-satqı və bağışlama müqavilələridir. Belə müqavilələrin bağlanması nəticəsində daşın-

maz əmlaka mülkiyyət hüquqlarının bir şəxsdən digərinə keçməsi sonradan bəzi hallarda mülki hüquqi mübahisələrin predmetinə çevrilir və maraqlı şəxslər məhkəməyə müraciət edərək müqavilənin etibarsız hesab olunması və daşınmaz əmlakın geri qaytarılmasını tələb edirlər. Burada belə bir sual yaranır. ***Daşınmaz əmlakın özgəninkiləşdirilməsi ilə bağlı əqdlərin, yani alqı-satqı, bağışlama kimi müqavilələrin sonradan etibarsız hesab olunması, daşınmaz əmlakın dövlət reyestrindəki müvafiq qeydin ləğv olunması və həmin əmlakın geri qaytarılması mümkündürmü? Əgər mümkündürsə, bu zaman belə etibarsızlığın hüquqi nəticələri nədən ibarətdir?***

AR MM-in 140-cı maddəsinə görə daşınmaz əmlakın dövlət reyestrinin məzmununun **qeyri-dəqiqliyi sübuta yetirilməyincə**, həmin məzmunun həqiqiliyi və tamamlığı prezumpsiyası qüvvədədir. Əqd əsasında özgəninkiləşdirənin adına qeydiyyata alınmış hər hansı bir hüququ əldə edən şəxsin xeyrinə reyestrdəki qeyd, bu qeydə dair etirazın reyestrə daxil edildiyi və ya əldə edən şəxsin qeydin qeyri-dəqiq olmasını bildiyi hallar istisna olmaqla, **həqiqi hesab edilir**.

Göründüyü kimi mülki qanunvericiliyin bu norması daşınmaz əmlakın dövlət reyestrinin ictimai əhəmiyyətini xeyli artırmışdır. Burada qanunverici o mövqedən çıxış etmişdir ki, reyestr daşınmaz əmlakın dövlət reyestri haqqında qanunvericiliyə uyğun olaraq ciddi qeydiyyat icraatı vasitəsilə aparılsın və daşınmaz əmlakla bağlı hüquqi vəziyyəti düzgün əks etdirsin.

AR MM-in 141.1-ci maddəsində nəzərdə tutulmuş hallarda daşınmaz əmlakın **dövlət reyestrinin mötəbərliyinə qarşı etiraz edilə bilər**. Həmin maddəyə görə əgər daşınmaz əmlakın dövlət reyestrinin məzmunu torpaq sahəsi üzərində hüquqa və ya həmin hüququn məhdudlaşdırılmasına dair həqiqi hüquqi vəziyyətə uyğun deyildirsə, hüququ qeydə alınmamış və ya hüququ düzgün qeydə alınmamış şəxs, yaxud mövcud olmayan yüklənmə haqqında qeydin daxil edilməsi ilə hüququ pozulmuş şəxs daşınmaz əmlakın dövlət reyestrində qeyddə düzəlişin aparılması üçün belə düzəlişlə hüququna toxunulan şəxsdən razılıq verməsini tələb edə bilər. Buradan da aydın olur ki, qanunverici daşınmaz əmlaka hüquqların qeydiyyatının mötəbərliyini istisna edə biləcək halların dairəsini xüsusi olaraq müəyyən etməklə bu sahədə hüquqi sabitliyə nail olmaq niyyətində olmuşdur.

Yuxarıda qeyd olunanlarla yanaşı, AR MM-in 149-cu maddəsi daşınmaz əmlaka hüquqların əsassız qeydə alınması və onun doğurduğu hüquqi nəticələrlə bağlı məsələləri tənzimləyir. Maddədə qeyd olunur ki, **əgər daşınmaz əmlaka hüquqların qeydiyyatı əsassızdırsa** və ya əgər düzgün qeydiyyat əsassız çıxarılmışsa və ya dəyişdirilmişsə, bunun nəticəsində daşın-

maz əmlaka olan hüquqlarına toxunulmuş istənilən şəxs qeydiyyatın çıxarılması və ya dəyişdirilməsi haqqında iddia qaldıra bilər. Bunun nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsi üçün tələblər irəli sürülməsi istisna edilmir.

Göründüyü kimi mülki qanunvericilik daşınmaz əmlakın qeydiyyatının **əsassız olduğu halda** onun mübahisələndirilməsinə imkan verir. "Əsassızlıq" anlayışı özlüyündə yuxarıda qeyd etdiyimiz AR MM-in 139-1-ci maddəsində sadalanan daşınmaz əmlakın əldə edilməsi əsaslarından heç birinin olmamasını ehtiva edir. Daşınmaz əmlakın əldə olunması əsaslarından biri də müqavilələr (alqı-satqı, bağışlama, renta və s.) olduğundan, əgər tərəflər arasında belə bir müqavilə yoxdursa və ya bağlanmış müqavilə qanunauyğun deyildirsə, deməli, bu zaman müqavilənin etibarsızlığından söhbət gedə bilər. Müqavilə o zaman qanunazidd olur ki, müqavilənin tərəfləri, məzmunu və forması ilə bağlı qanunun tələblərinə riayət olunmadığı aşkara çıxır. *(Məsələn, fəaliyyət qabiliyyəti olmayan şəxsin əmlakı özgəninkiləşdirməsi, ümumi birgə mülkiyyətdə olan əmlakın digər tərəfin razılığı olmadan özgəninkiləşdirilməsi və s.)*

Birinci sualımıza cavab olaraq deyə bilərik ki, maraqlı şəxs daşınmaz əmlaka hüquqların əsası kimi ilk növbədə müqavilənin etibarsızlığını sübut etməlidir. Yalnız bundan sonra daşınmaz əmlakın dövlət reyestrindəki qeydin ləğv olunmasından söhbət gedə bilər.

İkinci sualla bağlı, yəni etibarsızlığın hüquqi nəticələri ilə bağlı məsələyə gəldikdə isə, bu zaman məhkəmə təcrübəsində də müəyyən çətinliklər və fərqli mövqelər yaranır. Bu xüsusilə o hallarda baş verir ki, daşınmaz əmlaka mülkiyyət hüquqları bir neçə şəxsdən keçmişdir, yəni əmlak alıcı tərəfindən üçüncü şəxslərə satılmışdır. Belə hallarda məhkəmə təcrübəsində bəzən həmin əmlakla bağlı əvvəlki müqavilənin etibarsızlığı nəticəsində digər müqavilələr də etibarsız sayılaraq daşınmaz əmlak vicdanlı əldə edən üçüncü şəxsdən alınaraq ilkin mülkiyyətçiyə qaytarılır.

AR MM-in 157-ci maddəsinə görə mülkiyyətçi özgəsinin **qanunsuz sahibliyindən** öz əmlakını geri tələb edə bilər. Lakin bizim toxunduğumuz məsələ ilə bağlı üçüncü şəxslərə "qanunsuz sahib"lik anlayışını şamil etmək olmaz. Çünki bu şəxslər vicdanlı əldə edən olaraq müqavilə əsasında daşınmaz əmlakın dövlət reyestrində mülkiyyətçi kimi qeydə alınmışdır. AR MM-in 149-cu maddəsinə görə isə reyestrdə daşınmaz əmlaka hüquqlara dair əsassız qeydin ləğv olunduğu halda, ***vicdanlı üçüncü şəxslərin qeydiyyatla əlaqədar əldə etdikləri hüquqları saxlanılır***.

Deməli üçüncü şəxslər daşınmaz əmlakı müqavilə əsasında vicdanlı olaraq, yəni özgəninkiləşdirənin belə bir hüququnun olmadığını bilmədən əldə etmişlərsə, onun mülkiyyətçisi hesab olunurlar və həmin şəxslərə qarşı vindikasiya iddiası, yəni əmlakın geri alınmasına dair iddia tələbləri əsaslı ola bilməz.

Fikrimizcə, yuxarıda qeyd olunan halda yalnız əqdlərin etibarsızlığından irəli gələn nəticələrin tətbiqi daha qanuni və ədalətli həll yolu hesab edilməlidir. Mülki Məcəllənin əqdlərin etibarsızlığı nəticələrinə dair 337.5-ci maddəsində qeyd olunur ki, əqd etibarsız olduqda, əgər bu Məcəllədə onun etibarsızlığının ayrı nəticələri nəzərdə tutulmayıbsa, tərəflərdən hər biri əqd üzrə ***aldıqlarının hamısını digər tərəfə qaytarmalı, alınanları eyni ilə qaytarmaq mümkün olmadıqda isə onun dəyərini pulla ödəməlidir***.

Həmçinin Mülki Məcəllənin 354-cü maddəsinə görə maraqlı şəxs əqdin etibarsız sayılmasına əsas verən halları ***bildiyi və ya bilməli olduğu gündən bir il*** ərzində əqdi mübahisə edə bilər. Həmçinin nəzərə almaq lazımdır ki, əhəmiyyətsiz əqdin etibarsızlığı nəticələrinin tətbiqi haqqında iddia onun ***icrasına başlanıldığı gündən bir il***, vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqd mübahisəyə əsasən məlum olduğu andan ***bir ay*** ərzində irəli sürülə bilər.

Göründüyü kimi mülki qanunvericilik əqdlərin etibarsızlığına dair yuxarıda qeyd olunan iddia müddətlərini tətbiq etməklə, həmçinin əmlakı qaytarmağın qeyri-mümkün olduğu halda onun özünü deyil, dəyərini pulla ödəməyi nəzərdə tutması, habelə yuxarıda da qeyd etdiyimiz kimi daşınmaz əmlaka əsassız qeydə alınmış hüquqların ləğvi zamanı vicdanlı üçüncü şəxslərin qeydiyyatla əlaqədar əldə etdikləri hüquqlarının saxlanılması məhz daşınmaz əmlakların mülki dövriyyəsi ilə əlaqədar hüquq münasibətlərinin möhkəmliyinin təmin olmasına şərait yaradır. Buna görə də fikrimizcə, hüquqi-müəyyənlik prinsipinin qorunması, başqa şəxslərin hüquq və mənafelərinin müdafiəsi üçün belə hallarda müddət məsələlərinə, həmçinin daşınmaz əmlaka mülkiyyət hüququnun üçüncü şəxslərə keçib-keçməməsi məsələsinə aydınlıq gətirilməli, belə hallar olduqda, ***əmlakın özünün deyil, onun dəyərinin ödənilməsi imkanı nəzərdən keçirilməlidir.***

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının 6 fevral 2012-ci il tarixli qərarının Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair" 15 sentyabr 2014-cü il tarixli qərarında deyilir: *"Mülkiyyət və digər əmlak hüquqlarının, müqavilə və digər öhdəliklərin, əqdlərin etibarsızlığının nəticələri barədə hüquqların*

*yaranması və xitamını tənzimləyən qanunverici yalnız mülkiyyətçinin deyil, mülki dövriyyənin iştirakçısı kimi vicdanlı sahibin də mülki hüquqlarının qorunmasını təmin edən hüquqi vasitə və mexanizmləri nəzərdə tutmuşdur. Əks halda, hər hansı müqavilə bağlayarkən ağlabatan sayıqlıq və ehtiyat nümayiş etdirmiş vicdanlı sahiblərin geniş dairəsi üçün tam vindikasiya qaydasında onlardan tələb oluna bilən əmlakların qeyri-qanuni itirilməsi riski mövcud olardı... Mövcud mülki qanunvericiliyə əsasən, əgər mülkiyyətçi tərəfindən alqı-satqı müqaviləsinin və onun alıcıya verilmiş əmlakının geri qaytarılması formasında doğurduğu nəticələrin etibarsız sayılması haqqında iddia irəli sürüldükdə və bu cür mübahisəyə baxılan zaman məhkəmə tərəfindən alıcının vicdanlı sahib olduğu müəyyən edildikdə, onda MM-in 337.5-ci maddəsi ilə müəyyən edilmiş qaydada (yəni, ilkin vəziyyətin bərpası) iddianın təmin olunmasından imtina edilməlidir.”*

Burada bir haşiyə çıxmaq yerinə düşər ki, Mülki Məcəllənin 1 noyabr 2005-ci il tarixdə qüvvədən düşmüş 157.3-cü maddəsinin əvvəlki redaksiyasında qeyd olunurdu ki, əmlak onu özgəninkiləşdirməyə hüququ olmayan şəxsdən əvəzli əldə edildikdə və əldə edən bunu bilmədikdə və bilə bilmədikdə (vicdanlı sahib) mülkiyyətçi bu əmlakı əldə edəndən ancaq o halda tələb edə bilər ki, əmlak mülkiyyətçinin özü tərəfindən və ya mülkiyyətçinin sahibliyə verdiyi şəxs tərəfindən itirilmiş və ya onların hər hansı birindən oğurlanmış olsun və ya özlərinin iradəsindən asılı olmayaraq başqa yolla onların sahibliyindən çıxmış olsun. Əmlak onu özgəninkiləşdirməyə hüququ olmayan şəxsdən əvəzsiz əldə edildikdə, mülkiyyətçi əmlakı bütün hallarda tələb edə bilər.

Deməli, 2000-ci ildən 2005-ci ilin noyabr ayınadək olan münasibətlərdə həm də Mülki Məcəllənin o zaman qüvvədə olan 157.3-cü maddəsinin müddəaları da nəzərə alınmalıdır.

Məhkəmə təcrübəsində ən çox qarşılaşılan hallardan biri isə ər-arvadın ümumi birgə mülkiyyətində olan əmlakın özgəninkiləşdirilməsindən sonra tərəflərdən birinin onun razılığı olmadan bağlanmış əqdi (alqı-satqı, bağışlama və. s) mübahisələndirməsidir.

Azərbaycan Respublikası Ailə Məcəlləsinin 32-ci maddəsinə əsasən nikah dövründə ər-arvadın əldə etdikləri əmlak, o cümlədən daşınmaz əşyalar onların ümumi birgə mülkiyyəti sayılır.

Ər-arvaddan birinin daşınmaz əmlak üzərində sərəncam vermək barədə notariat qaydasında təsdiq edilən və qeydiyyata alınan əqdləri bağlaması üçün digər tərəfin notariat qaydasında təsdiq edilmiş razılığı lazımdır. Eyni məzmunlu müddəa “Notariat haqqında” Azərbaycan Respublikası Qanunu-

nun 46-cı maddəsinin ikinci hissəsində də öz əksini tapmışdır. Lakin qanunverici belə əqdin bağlanması zamanı göstərilən tələbə riayət edilməməsinin və bununla da birgə mülkiyyətçilərdən hər hansı birinin hüquq və qanuni mənafelərinin pozulmasının mümkünlüyü halını istisna etməyərək onun etibarsız sayılması üçün yuxarıda qeyd etdiyimiz iddia müddətləri çərçivəsində mübahisələndirilməsini də müəyyənləşdirmişdir.

Qeyd edək ki, bununla bağlı Mülki Məcəllədə xüsusi norma nəzərdə tutulmuşdur. Belə ki, Mülki Məcəllənin 225.6-cı maddəsinə görə daşınmaz əmlaka birgə hüququ olan ərin (arvadın) razılığı olmadan daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmış hüquq barədə bağlanmış müqavilə etibarsız hesab edilir. ***Bu, həmçinin əldə edənin belə hüququn yalnız müqavilə tərəfinə məxsus olması barədə vicdanlı olduğu hallara da aiddir.*** Əgər müqavilə üzrə tərəf müqavilənin etibarsızlığını bilirdisə və ya bilməli idisə, ***əldə edən*** həmin tərəfdən etibarsızlıqdan irəli gələn ***zərərin əvəzinin ödənilməsini tələb edə bilər.***

Göründüyü kimi ər-arvadın birgə nikah dövründə əldə etdiyi əmlakla bağlı qanunverici əldə edən şəxsin vicdanlı olduğu halda belə müqavilənin etibarsız olduğunu nəzərdə tutmuşdur. Əvəzində isə əldə edən şəxsə müqavilənin etibarsızlığı nəticəsində ona dəymiş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ verir. Normanın məzmunundan da göründüyü kimi burada da əmlakın özgəninkiləşdirilməsinə dair ərin və ya arvadın bağladığı ilk müqavilədən bəhs edilir. Yəni əgər həmin əmlakı əldə edən şəxs onu üçüncü şəxslərə satmışsa və üçüncü şəxslər də əmlakı vicdanlı əldə etmişsə, bu halda əmlakın qaytarılmasından deyil, MM-in yuxarıda qeyd etdiyimiz 337.5-ci maddəsində nəzərdə tutulan əmlakın dəyərinin ödənilməsindən söhbət getməlidir. Bu hallarda isə əldə edən şəxsin də ümumi birgə mülkiyyətdə olan əmlakı satmağa səlahiyyəti olmayan və bunu bilən və ya bilməli olan ərə (arvada) qarşı zərərin əvəzinin ödənilməsi ilə bağlı qarşılıqlı tələbləri yarana bilər.

Qeyd etmək yerinə düşər ki, daşınmaz əmlakla bağlı əqdlərin etibarsız sayılması zamanı işlərə baxılarkən notariat orqanlarının da maraqlı şəxs kimi işə cəlb olunması zəruridir. Belə ki, Mülki Məcəllənin 144-cü maddəsində qeyd olunur ki, daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələr notariat qaydasında təsdiqlənməlidir və təsdiqləmə zamanı notarius əşyaya dair sərəncam verən ***tərəfin sərəncam hüququnu və müqavilənin qanunauyğunluğunu yoxlamalıdır***. Notarius təsdiqlədiyi müqavilənin yanlışlığı üçün məsuliyyət daşıyır. Fikrimizcə, məhkəmələr tərəfindən bu işlərə baxılan zaman müqavilənin əsassız

olması ilə bağlı tələblər təmin edilərkən, burada notarial hərəkəti aparan vəzifəli şəxsin yol verdiyi qanun pozuntusuna da münasibət bildirilməlidir.

Mülki qanunvericiliyin daşınmaz əmlaklarla bağlı normalarının sistemli təhlili onu deməyə əsas verir ki, bu sahədə əsas diqqət daşınmaz əmlakın dövlət reyestrinə etimadın artırılmasına yönəlməli, onun həqiqiliyi və tamamlığı prezumpsiyasına diqqət daha da artırılmalıdır. Hesab edirik ki, məhz yuxarıda qeyd etdiyimiz hüquqi imkanların tətbiqi daşınmaz əmlaklarla bağlı vahid məhkəmə təcrübəsinin yaranması və düzgün hüquqi həll mexanizmlərinin formalaşmasına mühüm töhfə vermiş olar.

**İstifadə olunmuş normativ-hüquqi aktların və ədəbiyyatın siyahısı:**

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, Hüquq Yayın Evi, 2016.
2. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı, Hüquq Yayın Evi, 2016.
3. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin Kommentariyası. Qanun, 2011.
4. Mülki prosesdə tətbiq ediləcək hüququn tapılması. Bakı, Hüquq Ədəbiyyatı nəşriyyatı, 2012.
5. Azərbaycan Respublikası Konstitusiya məhkəməsinin rəsmi saytı (http://constcourt.gov.az)

# HAKİMLƏRİN MİLLİ VƏ BEYNƏLXALQ QURUMLARINDA

## Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı Məhkəmə-Hüquq Şurasının 2016-cı ilin birinci yarısında baxdığı bir sıra işlər haqqında

Bülletenin bu sərlövhəsinin əsas məqsədlərindən biri hakimləri Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə çıxarılmış qərarları ilə müntəzəm olaraq tanış etməkdən ibarətdir. Hakimlərin intizam məsuliyyətinə cəlb olunmaları ilə bağlı qərarların digər hakimlərin nəzərinə çatdırılmasının zəruriliyi, xüsusilə intizam tənbehlərinə səbəb olan pozuntular barədə hakim korpusunun məlumatlandırılmasının vacibliyi hakimlərin statusuna aid beynəlxalq hüquqi sənədlərdə də öz əksini tapmışdır. Hesab edirik ki, bu yolla həm hakimlərin özünüidarəsi sahəsində şəffaflıq prinsipi təmin olunur, həm də eyni pozuntuların digər hakimlər tərəfindən törədilməsi hallarının qarşısı alınmış olur. Bu məqsədlərdən çıxış edərək Bülletenin hazırkı sayında 2016-cı ilin birinci yarısında Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qəbul etdiyi bir sıra qərarlar barəsində ümumiləşdirilmiş məlumatları və buna dair müvafiq təhlili muxtar respublika hakimlərinin diqqətinə çatdırmaq istərdik.

2016-cı ilin birinci yarısında Məhkəmə-Hüquq Şurası tərəfindən 7 hakim barəsində intizam icraatı başlanılmış, həmin intizam icraatları üzrə 4 hakimin intizam məsuliyyətinə cəlb olunması haqqında qərar qəbul edilmişdir. Bu qərarlar Məhkəmə-Hüquq Şurasının 29 fevral və 08 aprel 2016-cı il tarixli iclaslarında qəbul olunmuşdur[1]. Həmin qərarlar əsasında intizam icraatı başlanılan hakimlərdən 1 nəfər Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin və 1 nəfər Ucar Rayon Məhkəməsinin hakimlərinə töhmət verilmişdir. Barəsində intizam icraatı başlanılmış 1 nəfər hakimə (Hacıqabul Rayon Məhkəməsinin hakimi) irad tutulmuş, 1 nəfər hakimin (Balakən Rayon Məhkəməsinin hakiminin) iş yerinin dəyişdirilməsi məqsədi ilə Azərbaycan Respublikasının Prezidentinə müraciət olunmuşdur.

İntizam icraatının başlanılmasına 2 halda Azərbaycan Respublikası Ali Məhkəməsinin, 1 halda Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin və 1 halda Bakı Apellyasiya Məhkəməsinin müraciətləri əsas olmuşdur.

---

[1] Bu sərlövhənin hazırlanması zamanı Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə 29 fevral və 08 aprel 2016-cı il tarixli qərarlarına istinad olunmuşdur.

1 halda intizam icraatının başlanılmasına səbəb əmək və icra intizamının pozulması, 3 halda isə işlərə baxılarkən qanunvericiliyin tələblərinin dəfələrlə və ya kobudcasına pozulması olmuşdur.

Məhkəmə-Hüquq Şurasının çıxardığı 29 fevral və 08 aprel 2016-cı il tarixli qərarlarından görünür ki, intizam icraatlarına dair işlərə baxılmasına Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi A.Əfəndiyev, Ucar Rayon Məhkəməsinin hakimi Ç.İsgəndərov və Hacıqabul Rayon Məhkəməsinin hakimi H.Əzizov tərəfindən işlərə baxılarkən qanunvericiliyin tələblərinin dəfələrlə və kobudcasına pozulması, 29 fevral 2016-cı il tarixli qərarından isə görünür ki, Balakən Rayon Məhkəməsinin hakimi R.Kazımov tərəfindən əmək və icra intizamı haqqında qanunvericiliyin tələblərinin pozulması əsas olmuşdur.

Məhkəmə-Hüquq Şurasının çıxardığı 29 fevral 2016-cı il tarixli qərarından görünür ki, Balakən Rayon Məhkəməsinin hakimi Rafiq Vəli oğlu Kazımov fəaliyyətində kobud qanun pozuntusuna yol vermişdir. Hakim R.Kazımov Məhəmməd Xanpəriyevin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – AR CM) 128-ci maddəsi ilə təqsirləndirilməsinə dair cinayət işinə 04 fevral 2015-ci ildə qanunvericiliyin tələbinə zidd olaraq xidməti otağında baxarkən proses iştirakçılarının təhlükəsizliyi lazımi qaydada təmin olunmadığından həmin iş üzrə zərərçəkmiş Elşən Xipiyev özü ilə gətirdiyi bıçaqla təqsirləndirilən şəxsi qətlə yetirmişdir.

Şəki Ağır Cinayətlər Məhkəməsinin 14 iyul 2015-ci il tarixli hökmü ilə Elşən Xipiyev AR CM-in 120.2.4 və 120.2.9-cu maddələri ilə təqsirli bilinib on səkkiz il altı ay müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, həmin hökm Şəki Apellyasiya Məhkəməsinin 9 sentyabr 2015-ci il tarixli qərarı ilə AR CM-in 120.2.4 və 120.2.9-cu maddələri ilə məhkum etməyə aid hissədə dəyişdirilmədən qüvvədə saxlanılmışdır.

Hakim Rafiq Kazımov Məhkəmə-Hüquq Şurasının həmin qərarından göründüyü kimi 4 fevral 2015-ci il tarixdə qeyd edilən iş üzrə dövlət ittihamçısı Rafiq Əliyev, təqsirləndirilən şəxs Məhəmməd Xanpəriyev bir nəfər polis işçisi ilə, habelə təqsirləndirilən şəxsin atası İlham Xanpəriyev, vəkil Məlahət Emçiyeva, zərərçəkmiş şəxslər və iclas katibi onun iş otağına daxil olmuşlar. Vəkil Məlahət Emçiyeva təqsirləndirilən şəxs Məhəmməd Xanpəriyevin müdafiəçidən imtina barədə ərizəsini və protokolu imza edib otaqdan çıxmış, iclas katibi zərərçəkmiş şəxsin barışıq ərizəsini ona təqdim etmiş, o həmin ərizələri nəzərdən keçirdikdən sonra proses iştirakçılarına iclas zalına keçmələrini bildirmək istədiyi zaman zərərçəkmiş Elşən Xipiyev polisin yanında dayanmış təqsirləndirilən şəxs Məhəmməd Xanpəriyevə

üzərində gətirdiyi bıçaqla xəsarət yetirmişdir. Nəticədə sonuncu aldığı xəsarətdən Balakən rayon mərkəzi xəstəxanasında ölmüşdür.

Hakim Rafiq Kazımovun fəaliyyətində aşkarlanmış qanun pozuntularına yol verməsi, həmin pozuntulara yol verməsində onun təqsirli olmasının istisna edilməməsi və həmin halın olması intizam icraatı üzrə aparılan araşdırmaya dair materiallarla, o cümlədən Elşən Xipiyevin AR CM-in 120.2.4 və 120.2.9-cu maddələri ilə təqsirli bilinib məhkum edilməsinə dair Şəki Ağır Cinayətlər Məhkəməsinin 14 iyul 2015-ci il tarixli hökmü və Şəki Apellyasiya Məhkəməsinin həmin hökmlə əlaqədar olan 9 sentyabr 2015-ci il tarixli qərarı ilə müəyyən edilmişdir.

Yuxarıda qeyd edilən hərəkətləri ilə hakim Rafiq Vəli oğlu Kazımov Azərbaycan Respublikası Konstitusiyasının 60-cı və 127-ci, "Məhkəmələr və hakimlər haqqında" Qanunun 6, 18 və 99-cu, habelə "Hakimlərin etik davranış kodeksinin"16-cı maddələrinin tələblərini pozmuşdur.

Məhkəmə-Hüquq Şurasının çıxardığı 29 fevral 2016-cı il tarixli qərarından görünür ki, Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi Əfəndiyev Akşin Ramiz oğlu işlərə baxarkən cinayət-prosessual qanunvericiliyin tələblərini və icra intizamını pozmuşdur. Hakim Aqşin Əfəndiyevin sədrliyi ilə Məmmədov İsmayıl İsax oğlu və qeyrilərinin AR CM-in 167-2.2.1 və 168.2-ci maddələri ilə məhkum edilməsinə dair məhkəmənin 07 oktyabr 2015-ci il tarixli hökmü çıxarılmışdır. Həmin hökmdən apellyasiya şikayəti verən müdafiəçilər hökmün surətini məhkəmədən ala bilmədiklərini, apellyasiya şikayətlərini isə hökmlə tanış olmadan yazdıqlarını, həmçinin məhkəmə iclas protokolu ilə tanış olmaları üçün onlara şərait yaradılmadığını göstərmişlər.

Bakı Apellyasiya Məhkəməsi tərəfindən apellyasiya şikayətlərinə ilkin baxış zamanı, məhkəmənin 07 oktyabr 2015-ci il tarixli hökmünün surətinin məhkumlara verilmədiyi, onların müdafiəçilərinə isə məhkəmə iclas protokolu ilə tanış olmaları üçün şərait yaradılmadığı halları müəyyən olunmuş, ona görə də qeyd olunan pozuntuların aradan qaldırılması və qanunvericiliyin tələblərinə əməl edilməsi üçün cinayət işinin Yasamal Rayon Məhkəməsinə qaytarılması barədə 01 dekabr 2015-ci il tarixli qərar qəbul edilmişdir.

Müəyyən edilmişdir ki, Məmmədov İsmayıl İsax oğlu və qeyriləri haqqındakı Yasamal Rayon Məhkəməsinin 07 oktyabr 2015-ci il tarixli hökmünün müvafiq olaraq məhkumlar İ.Məmmədov, E.Hacıyev, R.Səbzəliyev, Z.Məmmədov və Ş.Həsənova təqdim olunması üçün Bakı İstintaq Təcridxanasına göndəriməsinə dair 1(004)-108/2015 №-li 09 oktyabr 2015-ci il

tarixli məktub olsa da, həmin hökmün faktiki olaraq məhkumlara verilməsini təsdiq edən qəbz iş materiallarında yoxdur.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin (bundan sonra – AR CPM) 358-ci maddəsinə görə məhkəmənin hökmü elan edildiyi vaxtdan 3 gündən gec olmayaraq hökmün surəti digər şəxslərlə yanaşı məhkum edilmiş şəxsə, onun müdafiəçisinə verilməlidir.

AR CPM-in 391.6.2-ci maddəsinə görə hökmün surəti məhkuma və ya bəraət almış şəxsə verilmədikdə və ya onun ana dilinə, yaxud bildiyi dilə tərcümə edilmədən verildikdə apellyasiya instansiyası məhkəməsi cinayət işinin birinci instansiya məhkəməsinə qaytarılması haqqında qərar çıxarır.

AR CPM-in 384.2-ci maddəsinə görə həbsdə saxlanılan məhkum tərəfindən ittiham hökmündən apellyasiya şikayəti hökmün surəti ona verildiyi andan 20 gün müddətində verilir.

İş materiallarında olan müdafiəçilər Y.İmanovun 12.10.2015-ci il tarixli və Ə.Mustafayevin 14.10.2015-ci il tarixli Yasamal Rayon Məhkəməsinə ünvanlanmış ərizələrində müdafiəçilər müvafiq olaraq cinayət işinin materialları və məhkəmə iclas protokolu ilə tanış olmaları üçün onlara şərait yaradılmasını xahiş etmişlər, hakim həmin ərizələrə cavabında müdafiəçilərə cinayət işinin materialları ilə tanış ola biləcəklərini yazmış, həmin məktub iş materiallarına əlavə edilsə də, iş materiallarında müdafiəçilərin cinayət işinin materialları, yaxud məhkəmə iclas protokolları ilə tanış olmaları öz əksini tapmamışdır.

AR CPM-in 51.7-ci maddəsinə əsasən məhkəmə iclasının protokolu məhkəmə iclasında sədrlik edən və məhkəmə iclasının katibi tərəfindən məhkəmə iclası qurtardıqdan sonra 3 (üç) gün müddətində imzalanır. Bundan sonra məhkəmə tərəfindən onunla tanış olmaq hüququ olan şəxslərə 3 (üç) gün müddətində protokolla tanış olmaq imkanı yaradılır. Həmin şəxslər protokola dair yazılı qeydlərini verdiyi halda məhkəmə iclasında sədrlik edən qeydlərə baxaraq onlarla razılaşdıqda öz imzası ilə qeydləri təsdiq edir, razılaşmadıqda isə bu barədə müvafiq qərar qəbul edir. Protokola edilən qeydlərlə razılaşıb-razılaşmamasından asılı olmayaraq, həmin qeydlərin özü və onlara dair qərar məhkəmənin iclas protokoluna əlavə edilməlidir.

Beləliklə, Bakı Apellyasiya Məhkəməsinin iclasında müdafiəçilər Ə.Mustafayev və Y.İmanov məhkəmə iclas protokolu ilə tanış olmaları üçün onlara şərait yaradılmadığından protokolla tanış olmadıqlarını bildirmiş, işin materiallarında da müdafiəçilərin məhkəmə iclas protokolları ilə tanış olmalarını təsdiq edən hal mövcud olmamışdır. Həmçinin məhkumlar və müdafiəçilər cinayət işi üzrə hökmün surətinin onlara təqdim edilmədiyini

bildirmişlər. Buna görə də müdafiəçilərin məhkəmə iclasının protokolları ilə tanış olmaları və hökmün surətinin məhkumlara verilməsi üçün cinayət işi birinci instansiya məhkəməsinə qaytarılmışdır.

Bundan əlavə, Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 23 sentyabr 2013-cü il tarixli qərarı ilə (sədrlik edən hakim Ayaz Məmmədov) Bakı şəhər Baş Səhiyyə İdarəsinin 16 saylı şəhər poliklinikasında xəstə Sultanov Ramil Rafiq oğlunun məcburi ambulatoriya müşahidəsi və psixiatr müalicəsinin ləğv edilməsinə dair vəsatəti təmin edilmişdir. Həmin qərardan birinci instansiya məhkəməsində icraatda iştirak etmiş prokuror Ceyhun Kazımov apellyasiya protesti vermişdir.

Apellyasiya prostestinə ilkin baxış keçirilərkən prokuror Ceyhun Budaqov birinci instansiya məhkəməsində icraatda iştirak etmiş prokuror Ceyhun Kazımov tərəfindən məhkəmə iclas protokoluna verilmiş qeydi təqdim edərək AR CPM-in 51.7-ci maddəsinə əsasən həmin qeydə baxılması üçün apellyasiya protestinin baxışdan çıxarılaraq materialın Bakı şəhəri Yasamal Rayon Məhkəməsinə qaytarılması barədə şifahi vəsatət vermişdir.

Bakı Apellyasiya Məhkəməsi cinayət kollegiyasının 25 avqust 2014-cü il tarixli ilkin baxış qərarı ilə prokuror Ceyhun Budaqovun vəsatəti təmin olunmuş və material 28 avqust 2014-cü ildə Bakı şəhəri Yasamal Rayon Məhkəməsinə göndərilmişdir.

Sözügedən qeydə Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin həmin məhkəmə iclasına sədrlik etmiş hakimi Ayaz Məmmədov tərəfindən deyil, məhkəmənin digər hakimi Akşin Əfəndiyev tərəfindən baxılaraq 01 sentyabr 2014-cü il tarixli qərarla qeyd təmin edilməmişdir.

Bundan sonra material Bakı şəhəri Yasamal Rayon Məhkəməsi tərəfindən 31 avqust 2015-ci il tarixli məktubla, bir ilə qədər müddət keçdikdən sonra Bakı Apellyasiya Məhkəməsinə qaytarılmışdır.

Müəyyən edilmişdir ki, Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin 23 sentyabr 2013-cü il tarixli məhkəmə iclasının protokoluna verilmiş qeydə birinci dəfə düzgün olmayaraq həmin məhkəmə iclasına sədrlik etmiş hakim Ayaz Məmmədov tərəfindən deyil, 01 sentyabr 2014-cü il tarixdə məhkəmənin buna səlahiyyəti olmayan digər hakimi A.Əfəndiyev tərəfindən baxılmaqla bərabər, sözügedən material naməlum səbəbdən bir ilə yaxın müddət ərzində Bakı şəhəri Yasamal Rayon Məhkəməsində qaldıqdan sonra 31 avqust 2015-ci il tarixli məktubla Bakı Apellyasiya Məhkəməsinə qaytarılmışdır. Bununla da, hakim Akşin Əfəndiyev tərəfindən cinayət-prosessual qanunvericiliyin tələbi və icra intizamı kobud şəkildə pozulmuşdur.

Beləliklə, Məhkəmə-Hüquq Şurasının təhlil edilən qərarlarında sözügedən pozuntular maddi və prosessual hüquq normalarının pozulmasında ifadə edilmişdir.

Hesab edirik ki, Məhkəmə-Hüquq Şurasının intizam icraatı üzrə qəbul etdiyi qərarların, həmin qərarlarda intizam məsuliyyətinə səbəb olan əsaslar kimi müəyyən edilən halların öyrənilməsi faydalı olacaq.

Ümid edirik ki, muxtar respublika məhkəmələrinin hakimləri tərəfindən işlərə baxılması zamanı belə hallara yol verilməyəcəkdir.

≈≈≈

**Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin bəzi müddəalarına dair mülahizələr**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi (bundan sonra – AR İXM) Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş, həmin Qanun 2016-cı il martın ayının 1-dən qüvvəyə minmişdir. Sözügedən məcəlləyə 01 fevral, 04 mart, 05 aprel, 15 aprel, 06 may, 17 may, 14 iyun, 24 iyun və 30 sentyabr 2016-cı il tarixli Azərbaycan Respublikasının qanunları ilə əlavələr və dəyişikliklər edilmişdir.

Yazımızda Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin bəzi müddəalarına dair mülahizələrimizi oxucularla bölüşmək istərdik.

***İlk olaraq inzibati xəta haqqında işə baxan hakimin özü-özünə etiraz etməsi və ya ona etirazetmə barədə mülahizələr.***

AR İXM-in 107-ci maddəsində hakim, kollegial orqanın üzvü, vəzifəli şəxs tərəfindən işin baxılmasını istisna edən hallar, Məcəllənin 108-ci maddəsində isə hakimin, kollegial orqanın üzvünün, vəzifəli şəxsin özü-özünə etiraz etməsi və ya onlara etirazetmə məsələləri tənzimlənir.

AR İXM-in 108.1-ci maddəsinə əsasən bu Məcəllənin 107-ci maddəsində nəzərdə tutulan hallardan biri olduqda hakim, kollegial orqanın üzvü, vəzifəli şəxs özü-özünə etiraz etməlidir. Özü-özünə etiraz etmə barədə ərizə müvafiq məhkəmənin sədrinə, kollegial orqanın sədrinə, yuxarı vəzifəli şəxsə verilir.

Burada sual doğuran məsələ odur ki, tək hakimdən ibarət olan məhkəmənin hakimi özü-özünə etiraz edərsə, bu barədə ərizə kimə təqdim olunmalıdır?!

Göründüyü kimi maddədə sözügedən məsələ tənzimlənməmişdir *(təbii ki, maddədə göstərilən yuxarı vəzifəli şəxs anlayışı yuxarı instansiya məhkəməsini və ya həmin məhkəmənin hakimini nəzərdə tutmur)* və bu məsələnin nizama salınmasına ehtiyac vardır.

Digər bir məsələ: Məcəllənin 108.2 və 108.3-cü maddələrində göstərilir ki, bu Məcəllənin 107-ci maddəsində nəzərdə tutulan hallardan biri olduqda, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxs, zərərçəkmiş şəxs, fiziki şəxsin qanuni nümayəndəsi və ya hüquqi şəxsin nümayəndəsi, müdafiəçi, nümayəndə və ya prokuror hakimə, kollegial orqanın üzvünə və

ya vəzifəli şəxsə etiraz edir. Ərizəyə icraatında inzibati xəta haqqında iş olan hakim, kollegial orqan və vəzifəli şəxs tərəfindən baxılır. Buradan da belə aydın olur ki, hakimə etiraz edilməsi haqqında ərizəyə onun özü tərəfindən baxılır və müvafiq qərar qəbul edir. Fikrimizcə, sözügedən məsələyə bu cür yanaşılması mübahisələndirilə bilər. Çünki etiraz edilmiş hakimin özü tərəfindən həmin ərizəyə baxması onun obyektiv və ədalətli qərar qəbul etməsinə kölgə salacaqdır.

Müqayisə üçün qeyd edək ki, AR Mülki Prosessual Məcəlləsinin 22.5-ci maddəsinə əsasən əgər etiraz birinci instansiya məhkəməsində təktərkibli məhkəmənin hakiminə edilmişsə, bu halda etiraz, baxılmaq üçün apellyasiya instansiyası məhkəməsinə göndərilir.

Yaxşı olardı ki, AR İXM-də də mövcud problem AR MPM-də nəzərdə tutulan analoji qaydada həll edilsin.

***2. İnzibati xətaların sanksiyaları barədə mülahizələr***

AR İXM-in 9.1-ci maddəsinə görə inzibati xəta törətmiş şəxs haqqında tətbiq edilən tənbeh ədalətli olmalıdır, yəni inzibati xətaların xarakterinə, onun törədilməsi hallarına və inzibati xətanı törətməkdə təqsirli bilinənin şəxsiyyətinə uyğun olmalıdır. Təsadüfi deyil ki, AR İXM-in 31-ci maddəsində qeyd olunur ki, "fiziki və ya vəzifəli şəxslər barəsində inzibati tənbeh tətbiq edilərkən, xətanın xarakteri, inzibati xəta törədən şəxsin şəxsiyyətini xarakterizə edən hallar, onun təqsirinin dərəcəsi, əmlak vəziyyəti, habelə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar nəzərə alınır" (ikinci hissə); "Hüquqi şəxslər barəsində inzibati tənbeh tətbiq edilərkən, inzibati xətanın xarakteri, inzibati xəta nəticəsində hüquqi şəxsin əldə etdiyi xeyrin həcmi və ya onun maraqlarının təmin edilməsinin xarakteri və dərəcəsi, hüquqi şəxsi xarakterizə edən hallar, o cümlədən onun maliyyə və əmlak vəziyyəti, xeyriyyəçilik və ya digər ictimai faydalı fəaliyyətlə məşğul olması, habelə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran hallar nəzərə alınır" (üçüncü hissə).

Göründüyü kimi yuxarıda sadalananlar cəzanın fərdiləşdirilməsinə xidmət edir. Lakin AR İXM-də bir sıra inzibati xətaların sanksiyaları mütləq şəkildə müəyyən olunduğundan[2] cəzanın fərdiləşdirilməsi imkanları məhdudlaşır.

Fikrimizə aydınlıq gətirək. Tutaq ki, ayrı-ayrı şəxslər tərəfindən sanksiyası mütləq müəyyən olunmuş eyni inzibati xəta törədilərsə və həmin şəxs-

---

[2] Bax: AR İXM-in 181, 200, 201, 203, 212, 214.2, 222, 247, 248, 263, 266.3, 266.4, 274, 280, 286.2, 290.1, 290.2, 293, 294, 295, 297-302, 304-315, 317-321, 323.2, 324, 325, 327-331, 332.1, 332.2, 332.3, 336, 338, 339.1, 340.1, 344-348, 351, 356, 358, 386, 434, 435, 450.2, 452.2, 453, 454, 484, 492, 494, 500, 524, 566, 576, 604-cü maddələri və s.

lərdən biri barəsində sadəcə yüngülləşdirici hallar, digəri barədə isə sadəcə ağırlaşdırıcı hallar mövcud olarsa, bu halda həmin şəxslərə tətbiq olunacaq inzibati tənbeh fərdiləşdirilə bilmir.

Ümid edirik ki, bu problem yaxın gələcəkdə qanunvericilik müstəvisində öz müsbət həllini tapacaqdır.

***3. İnzibati həbsin tətbiq edilə bilmədiyi subyektlər dairəsi barədə mülahizələr***

AR İXM-in 30.2-ci maddəsinə əsasən "hamilə qadınlar və ya himayəsində on dörd yaşınadək uşağı olan qadınlar, on dörd yaşına çatmamış uşağını təkbaşına böyüdən kişilər, on səkkiz yaşına çatmayan şəxslər, birinci və ya ikinci qrup əlillər, sağlamlıq imkanları məhdud uşaqlar, altmış yaşına çatmış qadınlar və altmış beş yaşına çatmış kişilər, həmçinin hərbi qulluqçular, o cümlədən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları barəsində inzibati həbs tətbiq edilə bilməz".

İnzibati həbsin tətbiq edilməsi qadağan olunan subyektlərin dairəsi Azərbaycan Respublikasının qüvvədən düşmüş İXM-in 30.2-ci maddəsində belə nəzərdə tutulurdu: "Hamilə qadınlar və ya himayəsində səkkiz yaşınadək uşağı olan qadınlar, səkkiz yaşına çatmamış uşağını təkbaşına böyüdən kişilər, on səkkiz yaşına çatmayan şəxslər, birinci və ya ikinci qrup əlillər, habelə altmış yaşına çatmış qadınlar və altmış beş yaşına çatmış kişilər barəsində inzibati həbs tətbiq edilə bilməz".

Göründüyü kimi əvvəlki məcəllədən fərqli olaraq hazırda qüvvədə olan İXM-də inzibati həbsin tətbiq edilməsinə yol verilməyən subyektlərin dairəsi daha da genişləndirilmişdir.

Qüvvədən düşən İXM ilə müqayisədə yeni İXM-də himayəsində səkkiz yaşınadək deyil, on dörd yaşınadək uşağı olan qadınlara, səkkiz yaşına deyil, on dörd yaşına çatmamış uşağını təkbaşına böyüdən kişilərə həbsin tətbiq edilməsinə yol verilməməsinin təsbit olunması humanizm nöqteyi-nəzərindən təqdirəlayiq hal hesab edilməlidir.

Bundan başqa, hazırda qüvvədə olan İXM-də hərbi qulluqçular, o cümlədən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları və hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantları barəsində inzibati həbsin tətbiq edilməsinin qadağan edilməsinə gəlincə, hesab edirik ki, sözügedən məsələyə münasibətdə qüvvədə olan İXM-in mövqeyi daha düzgündür.

Əvvəki İXM-dən fərqli olaraq yeni İXM-də həbsin tətbiq edilməsinə yolverilməyən subyektlər dairəsinə "sağlamlıq imkanları məhdud uşaqlar"ın da əlavə edilməsi fikrimizcə, düzgün deyil.

Məlum olduğu kimi Azərbaycan Respublikasının qoşulduğu BMT-nin Uşaq Hüquqlarına dair Konvensiyasının 1-ci, eləcə də "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun 1-ci maddələrindən aydın olur ki, uşaq dedikdə, 18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən hər bir şəxs başa düşülür.

Bundan başqa, "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" AR Qanununun 2-ci maddəsində "sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaq" terminine belə anlayış verilmişdir: "orqanizmin ümumi inkişafının pozulmasına səbəb olan müxtəlif əqli, ruhi, fiziki qüsurlar və xəstəliklər nəticəsində həyat fəaliyyəti məhdudlaşan, sosial yardıma və müdafiəyə ehtiyacı olan uşaq (bundan sonra – sağlamlıq imkanları məhdud uşaq (18 yaşınadək şəxs)).

Göründüyü kimi AR İXM-in sözügedən maddəsində sadalanan subyektlər sırasında on səkkiz yaşına çatmayan şəxslər sağlamlıq imkanları məhdud uşaqları da əhatə edir. Bu mənada məcəllənin 30.2-ci maddəsindən "sağlamlıq imkanları məhdud uşaqlar" ifadəsinin çıxarılması məqsədəmüvafiqdir.

***4. İnzibati xətalar haqqında işlər üzrə qərarların yenidən baxılmasına dair mülahizələr***

İnzibati xəta haqqında iş üzrə qərardan verilən şikayət və ya protest üzrə qəbul edilmiş qərara məhkəmədə yenidən baxılmanı nəzərdə tutan AR İXM-in 137-ci maddəsinin ikinci bəndində həmin qərardan bu Məcəllənin 130-cu maddəsində nəzərdə tutulmuş müddətdə şikayət verilməsi müəyyən olunmuşdur.

AR İXM-in 130-cu maddəsinə nəzər saldıqda həmin müddətin **10 (on) gün** nəzərdə tutulması aydın olur.

01 mart 2016-cı il tarixə qədər qüvvədə olan AR İXM-in 438-ci maddəsində inzibati xətalar haqqında işlər üzrə qərardan verilən şikayət və ya protestlərlə bağlı qəbul edilmiş qərarın yenidən məhkəmələrdə Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş qaydada baxılmasının təsbit olunduğunu nəzərə alsaq, yeni İXM-də **müddətin göstərilməsini** mütərəqqi hal hesab edə bilərik.

Lakin məsələ burasındadır ki, nə qüvvədən düşmüş, nə də ki hazırda qüvvədə olan İXM-də **şikayətin verilməsi qaydası və proseduru** nəzərdə tutulmamışdır.

Müqayisə üçün qeyd edək ki, istər mülki, istərsə də cinayət mühakimə icraatı qaydasında hər üç instansiyada (birinci, apellyasiya və kassasiya) işlərə baxılması mexanizmi qanunvericiliklə tanınır. Bir halda ki, digər

icraatlar (mülki və cinayət) üzrə üç məhkəmə instansiyasından söhbət gedir, məntiqi baxımdan milli qanunvericilikdə inzibati xətalarla bağlı icraat üzrə də birinci, apellyasiya və kassasiya instansiyaları tanınmalıdır.

İnzibati xətalar qanunvericiliyində apellyasiya məhkəməsinin qərarlarından kassasiya instansiyası məhkəməsinə şikayət verilməsi prosedurunun mövcud olmaması nə milli qanunvericiliyin ruhuna, nə də ki, Avropa Məhkəməsinin mövqeyinə uyğundur.

Bu cür yanaşma həmçinin Avropa Məhkəməsinin mövqeyi baxımından da əhəmiyyət kəsb edir. Belə ki, Avropa Məhkəməsi “cinayət ittihamı”na avtonom anlayış verərək[3] milli hüquq əsasında tövsifi yalnız nisbi dəyər hesab edir.

Ümumiyyətlə, Avropa Məhkəməsi “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Avropa Konvensiyasının 6-cı maddəsi müstəvisində cinayət törətməkdə ittiham olunan şəxs sayılıb-sayılmaması məsələsini həll edərkən üç meyar müəyyənləşdirmişdir: 1. əməlin milli hüquq baxımından tövsifi; 2. Cinayətin (əməlin) xarakteri; 3. Maraqlı şəxsin məruz qala biləcək sanksiyanın xarakteri və ağırlıq dərəcəsi[4].

Məsələyə bu prizmadan yanaşsaq, deyə bilərik ki, inzibati xətaya da sözügedən üç meyar əsas götürülməklə yanaşıldıqda Avropa Məhkəməsi tərəfindən müəyyən hallarda “cinayət” kimi qiymətləndirilir. Təsadüfi deyil ki, inzibati həbs tənbeh növü Avropa Məhkəməsinin bir sıra qərarlarında cinayət cəzası kimi azadlıqdan məhrum etmə ilə eyniləşdirilir.

Milli qanunvericilikdə “inzibati həbsin **üç ay müddətinədək** müəyyən olunduğunu (AR İXM-in 30.1-ci maddəsi) nəzərə alsaq, Avropa Məhkəməsinin azadlıq hüququna verdiyi önəmdən qaynaqlanan inzibati həbslə cinayət cəzasını eyniləşdirməsinə dair mövqeyini anlamaq olar.

Buna görə də qanunvericilikdə inzibati xətalara dair qərarlardan kassasiya instansiyası məhkəməsinə şikayət verilə bilməsi imkanının nəzərdə tutulması insan hüquq və azadlıqlarının müdafiəsi, ədalətli məhkəmə araşdırması hüququnun təmin edilməsi istiqamətində irəliyə doğru atılmış addım olardı.

**İstifadə olunmuş normativ-hüquqi aktların və ədəbiyyatın siyahısı:**

1. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. Bakı, Qanun, 2016.

[3] Case of Deewer v Belgium (Application no. 6903/75) judgment 27 February 1980, pg. 42.
[4] Case of a A.P., M.P. and T.P. v Switzerland, judgment 29 August 1997, pg. 39.



# ALİ MƏHKƏMƏNİN MƏTBUAT XİDMƏTİNDƏN

***Türkiyə Respublikası Ali Məhkəməsinin sədri və onu müşayiət edən nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir***



Aprelin 20-də Türkiyə Respublikası Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Cirit və onu müşayiət edən nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov nümayəndə heyəti ilə görüşmüşdür.

Qonaqları salamlayan Ali Məclisin Sədri onları Naxçıvanda görməkdən məmnunluğunu bildirmişdir. Naxçıvanın muxtariyyət tarixi, dövlət quruluşu, əhalisi, sərhədləri və sosial-iqtisadi inkişafı haqqında məlumat verən Ali Məclisin Sədri demişdir ki, Ermənistanın işğalçılıq siyasətinə baxmayaraq ötən əsrin 90-cı illərində ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan qorunub saxlanılmış və ölkəmizin hərtərəfli inkişafının əsası qoyulmuşdur. Hazırda Azərbaycan Prezidenti tərəfindən bu yol uğurla davam etdirilir, Naxçıvanın təhlükəsizliyinə və inkişafına xüsusi diqqət yetirilir.

Ali Məclisin Sədri Türkiyə Respublikası Ali Məhkəməsi sədrinin rəhbərlik etdiyi nümayəndə heyətinin muxtar respublikaya səfərinin də əlaqələrin inkişafı baxımından faydalı olacağına əminliyini ifadə etmişdir.

Nümayəndə heyətinə göstərilən səmimi münasibətə görə Ali Məclisin Sədrinə minnətdarlıq edən Türkiyə Respublikası Ali Məhkəməsinin sədri Azərbaycana səfəri müddətində bir sıra görüşlər keçirdiyini bildirmişdir. Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə müşahidə olunan inkişafın məmnunluq doğurduğunu bildirən qonaq qeyd etmişdir ki, məhkəmə-hüquq sistemində qarşılıqlı fəaliyyətin genişləndirilməsi əməkdaşlıq üçün yeni imkanlar açacaqdır.

Görüşdə Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov iştirak etmişlər.

Sonra Türkiyə Respublikası Ali Məhkəməsinin sədri İsmayıl Rüştü Ciritin rəhbərlik etdiyi nümayəndə heyəti muxtar respublikanın tarixi-memarlıq abidələri, muzeyləri, görməli yerləri ilə tanış olmuşdur.

Türkiyəli qonaqlar əvvəlcə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət etmişlər. Qonaqlar muzeydə ümummilli liderin həyatının müxtəlif dövrlərini əks etdirən stendlərə, 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrə aid rəsmi sənəd və materiallara, məktublara, Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətlərinə, ulu öndərə məxsus şəxsi əşyalara baxmışlar.

Naxçıvan şəhərindəki "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi, Əcəmi seyrəngahında yerləşən "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi və Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıq qonaqların böyük marağına səbəb olmuşdur.

≈ ≈ ≈ ≈ ≈
≈ ≈ ≈
≈

## 2016-cı ilin iyun-oktyabr aylarında keçirilən tədbirlərin xülasəsi

İyun ayının 11-də Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məhkəmələrin hakimləri üçün İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının 3-cü və 5-ci maddələrinin tətbiqinin aktual məsələləri, mülki və inzibati-iqtisadi işlərə baxılması zamanı yaranan problemlər və onların həlli yolları ilə bağlı seminar keçirilmişdir.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov açmışdır.

Seminarda Avropa Konvensiyasının 3-cü və 5-ci maddələrinin tətbiqinin aktual məsələləri barədə Azərbaycan Respublikası Ali Məhkəməsinin cinayət kollegiyasının sədri Şahin Yusifovun, mülki və inzibati-iqtisadi işlərə baxılması zamanı yaranan problemlər və onların həlli yollarına dair inzibati-iqtisadi kollegiyanın hakimi İlqar Dadaşovun və mülki kollegiyanın hakimi Vəfaddin İbayevin, habelə Azərbaycan Respublikası Ali Məhkəməsinin əməkdaşlarının mövzu barədə məruzələri dinlənilmişdir.

Tədbirin gedişində mövzu ətrafında müzakirələr olmuş, qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

Tədbirə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov yekun vurmuşdur.

≈≈≈

İyul ayının 12-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov iclasda iştirak etmişdir.

İclasda ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl islahatlardan söhbət açılmış, məhkəmə fəaliyyətini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər müzakirə edilmişdir.

İclasda həmçinin hakimliyə namizədlərin seçilməsi prosesi ilə bağlı Hakimlərin Seçki Komitəsinin məlumatı dinlənilmiş, hakimliyə namizədlərin seçimi prosesinin növbəti mərhələlərinin təşkilati məsələlərinə toxunulmuşdur.

Eyni zamanda hakimlər barədə intizam icraatlarına baxılaraq fəaliyyətlərində ciddi qanun pozuntuları və süründürməçilik hallarına yol verdiklərinə görə Şəki Apellyasiya Məhkəməsinin hakimi İmamverdi Şükürova, Beyləqan Rayon Məhkəməsinin sədri Maşalla Şirvanova və həmin məhkəmənin hakimi Nəsrullah Əliyevə töhmət verilmiş, qanunvericiliyin pozulması halları ilə bağlı 5 hakim barədə intizam icraatı başlanılmışdır.

≈≈≈

İyul ayının 28-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin iclası keçirilmiş, iclasda 2016-cı ilin birinci yarısında muxtar respublika məhkəmələrinin fəaliyyətinin yekunları müzakirə olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov cari ilin birinci yarısında muxtar respublika məhkəmələri tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi, vətəndaşların hüquq və azadlıqlarının təmin olunması sahəsində, habelə əhalinin hüquqi maarifləndirilməsi istiqamətində görülən işlər barədə məlumat vermişdir.

Qeyd olunmuşdur ki, əvvəlki illərdə olduğu kimi cari ilin birinci yarısında da Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində mühüm addımlar atılmış, məhkəmələrin fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiq olunması ilə bağlı bir sıra zəruri işlər görülmüşdür.

Sonra muxtar respublikanın ixtisaslaşdırılmış, şəhər və rayon məhkəmələrinin sədr və hakimlərinin 2016-cı ilin birinci yarısında həyata keçirdikləri işlərə dair məlumatları dinlənilmişdir.

İclasa Ali Məhkəmənin sədri Ramiz Süleymanov yekun vurmuşdur.

≈≈≈

06 avqust 2016-cı il tarixdə keçirilmiş 45 saylı Aza seçki dairəsi üzrə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə əlavə seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsinə dair avqustun 10-da Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin iclası keçirilmiş, seçkilərin nəticəsi Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin qərarı ilə təsdiq edilmişdir.

≈≈≈

Oktyabr ayının 13-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov iclasda iştirak etmişdir.

İclasda ötən ay yüksək demokratik standartlar səviyyəsində keçirilmiş referendumun ölkəmizin gələcək inkişafı, insan hüquqlarının daha etibarlı təminatı, dövlət idarəçiliyinin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyəti qeyd edilmiş, Konstitusiyaya dəyişikliklər haqqında Referendum Aktının böyük vətəndaş həmrəyliyi ilə qəbul edilməsinin dövlət başçısı cənab İlham Əliyevə olan yüksək inam və ümumxalq etimadının növbəti təzahürü olduğu xüsusi vurğulanmış, eləcə də Konstitusiyaya dəyişikliklərin məhkəmə hakimiyyətinin fəaliyyətinə müsbət töhfəsindən, o cümlədən hakimliyə namizədlərə dair yaş həddinin götürülməsinin gənclərin məhkəmə

hakimiyyətində daha geniş təmsil olunmasına şərait yaradılmasından söhbət aparılmışdır.

İclasda həmçinin, məhkəmə fəaliyyətini tənzimləyən qanunvericiliyin müsbət beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi, məhkəmə sistemində mövcud olan vakansiyaların komplektləşdirilməsi üzrə tədbirlər müzakirə edilmiş, digər təşkilati məsələlərə baxılmışdır.

Eyni zamanda hakimlər barədə intizam icraatlarına baxılaraq kobud qanun pozuntularına və korrupsiyaya şərait yaradan hallara yol verdiklərinə görə Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi Akşin Əfəndiyevin tutduğu vəzifədən azad olunaraq başqa işə keçirilməsi, Sumqayıt Şəhər Məhkəməsinin hakimi İlyas Mahmudova və Zaqatala Rayon Məhkəməsinin hakimi Arif İsmayılova töhmət verilməsi barədə qərarlar qəbul edilmiş, vətəndaşların haqlı narazılığına səbəb olan ciddi nöqsanlara, o cümlədən süründürməçilik hallarına yol verdiyinə görə 1 hakim barədə intizam icraatı başlanılmışdır.

≈≈≈

Hakim kadrlarına olan ehtiyacla bağlı hakim vəzifəsinə namizədlərin sənədlərinin qəbuluna yenidən başlanılmış və 806 nəfər öz namizədliyini irəli sürmüşdür.

Bu ilin iyun ayının 9-da ölkəmizdə hakimliyə namizədlərlə keçirilən test imtahanında uğur qazanan namizədlər imtahanın ikinci mərhələsinə buraxılmışdır.

Bu ilin avqust ayının 12-də 359 nəfər hakimliyə namizədlə yazılı imtahan keçirilmiş, tam anonim olan cavab vərəqələri ikiqat yoxlama üsulu ilə qiymətləndirildikdən sonra imtahan nəticələri elan olunmuşdur.

Qeyd edək ki, imtahanın nəticəsinə görə 176 nəfər namizəd müsabiqənin növbəti mərhələsinə – şifahi imtahana buraxılmışlar.

≈≈≈≈≈
≈≈≈
≈

**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ**


4700000000
053-2014

Yığılmağa verilmiş: 24.10.2016.
Çapa imzalanmış: 31.10.2016.
Formatı 60x90 1/8 “Tayms” qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 5,5 ç.v.
Sifariş № 762. Tiraj 100 nüsxə.

“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.